İsfəhan **Qaimiyyə** kompüter araşdırmalar mərkəzi

# Qaimiyyə





www.Ghaemiyeh.com
www.Ghaemiyeh.org
www.Ghaemiyeh.net
www.Ghaemiyeh.ir


İMAM HÜSEYNİN (Ə)
QİYAMINA ANALİTİK
BİR BAXIŞ
USTAD MÜRTƏZA MÜTƏHHƏRİ

بسم الله الرحمن الرحیم

İMAM HÜSEYNİN (Ə) QİYAMINA ANALİTİK BİR BAXIŞ

:Müəllif

Şəhid Mürtəza Mütəhhəri

:Çap nəşriyyat

Şəhriyar

:Digital nəşriyyat

İsfəhan Qaimiyyə adına komputer araşdırmalar mərkəzi

# Mündəricat

Mündəricat ۵
İMAM HÜSEYNİN (Ə) QİYAMINA ANALİTİK BİR BAXIŞ ۶
KİTAB HAQQINDA ۶
İşarə ۶
MÜQƏDDİMƏ ۱۰
ÖN SÖZ ۱۳
İmam Hüseyn (ə)-ın inqilabi hərəkatında mühüm amillər ۱۴
Birinci amil beyət ۱۶
İkinci amil dəvət ۲۸
Üçüncü amil əmr be məruf ۳۳
İşarə ۳۳
Mözünün ardı ۴۲
:Ariflərin nəzərincə zahidin dörd müxtəlif yolu vardır ۵۴
Əmr be məruf və nəhy əz münkərin şərtləri ۵۶
Əmr be məruf və nəhy əz münkərin dərəcələri ۶۷
Əmr be məruf və nəhy əz münkərin növləri-۱ ۷۶
Əmr be məruf və nəhy əz münkərin növləri-۲ ۸۸
Əmr be məruf və nəhy əz münkərin növləri-۳ ۱۰۲
Əmr be məruf və nəhy əz münkərin növləri-۴ ۱۱۴
Əmr be məruf və nəhy əz münkərin növləri-۵ ۱۲۲
Mündəricat ۱۳۱
Haqqında mərkəzi ۱۳۲

# İMAM HÜSEYNİN (Ə) QİYAMINA ANALİTİK BİR BAXIŞ

## KİTAB HAQQINDA

Kitabın adı:....................İmam Hüseynin (ə) qiyamına analitik bir baxış

Müəllif:...............Ustad Mürtəza Mütəhhəri

Tərcümə edən:.....................Tərcümə heyəti

Tiraj:..........................................................۳۰۰۰

Çap növbəsi:......................................Birinci

Çap tarixi.................................................۲۰۰۶

۹۶۴-۵۹۳۴-۵۵-۹

səh:۱

## İşarə

## MÜQƏDDİMƏ

İnsan öz həyatında qarşılıqlı əlaqələr yaradıb ictimai şəkildə yaşamağa meyl göstərən bir vücuddur. Onun ictimai yaşayışı həqiqətən zati, təbii və fitri bir məsələdir. Buna əsasən onun dağlar qoynunda, səhralarda və meşələrdə təkcə yaşaması öz fitrətinə .zidd və əslində qeyri-mümkün olan bir işdir

Həmin məsələ ilə əlaqədar olaraq hikmət alimləri demişlər ki, insan təbii və fitri cəhətdən mədəni və ictimai bir məxluq kimi yaranmışdır. Cəmiyyət qurmaq, başqalarının qeydinə qalmaq, onların həyat və yaşayışları ilə maraqlanmaq, təsir edib təsirə məruz qalmaq, başqa insanlarla həmkarlıq edib yaşayış problemlərini həll etmək, yaşadığı cəmiyyətdə maddi və mənəvi çətinlikləri aradan qaldırmaq və bəzən də cəmiyyətin ümumi mənafeyinə, özünün şəxsi hüquqlarına təcavüz olunduqda müdafiə mövqeyi seçmək və nəticədə öz dünyasının təmin olması və axirətinin

abadlaşmasında əsas rol oynayan bu kimi əməl və hərəkətlər onun fitrətində və .təbiətindədir

Belə bir şəkildə təşkil edilmiş hər hansı bir cəmiyyət öz həyatını davam etdirmək üçün orada hakim olan din və qayda-qanunları da qorumalıdır. Həmin din, ayin və qayda-qanunuların qorunmasının yollarından biri də əmr be məruf (yaxşı işlərə dəvət) və nəhy əz münkər (pis işlərdən çəkindirmək) mövzusudur. Cəmiyyət üzvlərindən kimsə hər hansı bir qanuna və ya dinə zidd hərəkət edib hakim qanunlara hörmətsizlik etdikdə cəmiyyətin bütün üzvləri onu qorumaq məqsədi ilə həmin şəxsi bu kimi işlərdən çəkindirməlidir. Cəmiyyət üzvləri ümumi prinsipləri qorusunlar deyə, qanuna zidd olan hər hansı bir hərəkətin qarşısını almalı və öz məsuliyyətli öyüd-nəsihətləri ilə .onları yaxşı işlərə tərəf yönəltməli və pis işlərdən çəkindirməlidirlər

:Həzrət Əli (ə) bu barədə belə buyurubdur

.İslam şəriətinin davam etməsi əmr be məruf və nəhy əz münkərdən asılıdır

.Həmin səbəbə görədir ki, əmr be məruf əməllərin ən fəzilətlisi kimi tanıtdırılmışdır

:Həzrət Əli (ə) buyurdu

Əmr be məruf insanların ən yaxşı əməlidir. Hər bir cəmiyyətin sabitliyi onda əmr be .məruf məsələsinə necə yanaşılmasından asılıdır

:Beşinci imam Məhəmməd Baqir (ə) həmin məsələ haqda buyurur

Əmr be məruf və nəhy əz münkər Allahın işlərindəndir ki, ona yardım edən şəxsi Allah“ ”.əziz edər, əməl etməyib onu sayamayan şəxsi isə zəlil edər

Həqiqətən insanın dünya və axirət xoşbəxtliyi əmr be məruf və nəhy əz münkərlə .təmin olunur

:İmam Rza (ə) buyurub

Əmr be məruf və nəhy əz münkəri tərk etməyin, əks təqdirdə Allah-təala pis adamları .sizə hakim edər və sonra hər nə qədər dua etsəniz qəbul olunmaz

Əmr be məruf və nəhy əz münkər lazım və zəruri məsələlərdəndir ki, Qurani-kərim müxtəlif ayələrdə ona təkid edir və imamlar da bu barədə yüzlərlə hədis buyurmuşlar. Böyük ustad şəhid Mürtəza Mütəhhəri də bu məsələyə xüsusi diqqət yetirmiş, onu müxtəlif cəhətlərdən araşdıraraq “İmam Hüseyn (ə) qiyamında əmr be məruf və nəhy .əz münkər amili” adlı bir kitab toplamışdır

Bu kitab Azərbaycan xalqının istifadəsinə verilmək məqsədi ilə Ümumdünya Əhli-beyt

Cəmiyyətinin mədəniyyət şöbəsi tərəfindən hörmətli tərcüməçilərin vasitəsilə Azərbaycan dilinə tərcümə edilib və buraxılmışdır. Allahdan bütün müsəlmanlara səadət və islam maarifini öyrənib Quranın əhkamına düzgün əməl etməkdə tövfiq, .bütün müsəlmanlara birlik və islam düşmənlərinin tezliklə məhv edilməsini istəyirik

Ümumdünya Əhli-beyt cəmiyyəti

## ÖN SÖZ

Hörmətli oxucuların diqqət və nəzərinə çatdıracağımız bu mövzu böyük və əziz ustadımız şəhid Mürtəza Mütəhhərinin elmi tədqiqatlarındandır. O, imam Hüseyn (ə)-ın qanlı inqilabında təsirli olan müxtəlif səbəblərin barəsində geniş tədqiqatlar aparmış və nəhayət bu hərəkatda əmr be məruf və nəhy əz münkəri ən yüksək amil hesab etmişdir. Bu mövzunun dolğun və əhəmiyyətli olduğunu nəzərə alaraq, onu istifadənizə təqdim edəcəyimiz kitab şəklində çapa hazırlamağı qərara aldıq. Oxucuları lazımi faktlarla tanış etmək məqsədilə söhbətdə istifadə olunan mənbələrin ünvanını səhifələrin aşağısında qeyd etmişik. Arzu edirik ki, Allah-təala bu işdə xidmət edən qardaşların zəhmətini, o cümlədən mövzuları lent yazılarından kağız üzərinə ,köçürənlərin

redaktə və montaj edənlərin və ümumiyyətlə bu işdə fəaliyyət göstərən bütün qardaşların zəhmətini qəbul etsin. Amin...!

## İmam Hüseyn (ə)–ın inqilabi hərəkatında mühüm amillər

İmam Hüseyn (ə)–ın inqilabi hərəkatında üç əsas amilin mühüm rolu olmuşdur. Ümumiyyətlə həmin üç mühüm amil bu böyük hadisəni formalaşdırmışdır. Bu mühüm tarixi hadisəni təfsir edib həqiqi mahiyyətini başa düşmək olduqca çətindir. Tarixdə də bu sahədə ətraflı məlumat verilməmişdir.

Bu böyük hadisəyə sbəbə olan amillərin mürəkkəbliyinə hərə onu bir cür .aydınlaşdırmış, bəziləri də ondan sui-istifadə etmişlər

Biz bu hadisədə müxtəlif məsələlərlə qarşılaşırıq. Məsələn, bir yerdə görürük ki, imam Hüseyn (ə) ondan beyət etməsini istəyənlərin sözünü rədd edərək bu təklifə boyun əymir, başqa bir yerdə də kufəlilərin dəvətini qəbul edir. Bəzən də görürük ki, İmam beyət və dəvət məsələsini nəzərə almayaraq hökumətin mövcud vəziyyətini tənqid edir və fəsadın geniş surətdə yayılmasını xəbər verir. O həzrət, islam qununlarının təhrif olunmasından, halal işlərin haram, haramların isə halal edilməsindən söz açır. İmam Hüseyn əleyhissəlamın nəzərincə belə bir şəraitdə müsəlman xalq bu kimi hadisə və cərəyanlar qarşısında sakit qalmamalıdır. Görürük ki, imam nə beyətdən və nə də dəvətdən daşınır. O, nə Yezidin ondan istədiyi beyət və nə də kufəlilərin dəvət ?məsələsini bəyan edir. Görəsən bunun səbəbi nə imiş

Görəsən məsələ bəyət və dəvət idi, yoxsa çirkin əməllərin yayılmasına qarşı etiraz və tənqid məsələsi? Görəsən həqiqət nə idi?! Bu məsələni hansı nöqteyi-nəzərdən araşdırmalıyıq?! Bundan

əlavə, görəsən Yezidin dövrü ilə Müaviyə dövrü arasında nə kimi fərqlər var idi? Nə üçün imam Hüseyn əleyhissəlam Yezid ilə sülh etməyə hazır olmadı və belə bir sazişi ?heç bir şəkildə qəbul etmədi

Həqiqət budur ki, qeyd etdiyimiz səbəblərin hamısı imam Hüseyn əleyhissəlamın hərəkatında öz təsirini göstərmişdir. İmam bütün bu amillər qarşısında əks-əməl göstərmişdi. Onun həyata keçirdiyi işlər beyətdən imtina etmək, kufəlilərin dəvəti və .yaxud fəsad və pozğunluğa qarşı mübarizə aparmaq əsasında olmuşdur

**Birinci amil beyət**

İmam Həsən əleyhissəlamın səhabələri sarsılıb dağılışdıqdan sonar İmam (ə) Müaviyə ilə müvəqqəti bir sülh müqaviləsi imzaladı. Bu məsələ heç də Müaviyə sülaləsinin uzunmüddətli hökumətilə barışmaq mənasında deyil, məhdud və müvəqqəti bir müqavilə ilə razılaşmaq idi. Bu müqaviləyə əsasən Müaviyədən sonra müsəlmanlar özləri layiq bildiyi bir şəxsi xəlifə seçməli və yaxud Peyğəmbər tərəfindən təyin .olunmuş və inanılmış bir şəxsə itaət etməliydilər

Müaviyə zamanına qədər xilafət və hökumət irsi bir məsələ deyildi. O zamanadək bu :sahədə yalnız iki növ düşüncə tərzi mövcud idi

.Ancaq Allahın əmri və Peyğəmbərin vasitəsilə təyin olunan şəxs xilafətə layiqdir-١

.Xalq özü xəlifə seçməkdə azaddır-٢

Hər halda Müaviyə zamanınadək camaat arasında bir xəlifənin özünə canişin təyin .etməsinə təsadüf olunmamışdı

İmam Həsən əleyhissəlam sülh müqaviləsində qeyd etdi ki, Müaviyə özündən sonra .müsəlmanların taleyi ilə əlaqədar heç bir qərar təyin etməyə haqlı deyil

Bütün bu qərarlara baxmayaraq, Müaviyə elə həmin ilk günlərdən etibarən xilafəti varislik yolu ilə oğluna vermək qərarına gəlmişdi. Tarixçilər nəzərincə o, xilafəti .səltənət və şahlıq şəklinə gətirib çıxarmaq istəyirdi

Amma o, belə bir iş üçün hələlik şəraitin əlverişli olmadığını duyub bu barədə çox düşündü və bu işlə bağlı yaxın dostları ilə məsləhətləşdi. O, bu işin baş tutacağına arxayın olmadığı üçün öz fikrini açıq-aydın söyləməyə cürət etmirdi. Bəzi tarixçilərin yazdıqlarına əsasən, Kufənin keçmiş valisi Müğəyrət ibni Şöbə, Müaviyə tərəfindən

cəzalanaraq bu vəzifədən kənarlaşdırıldığına görə çox narahat idi və yenidən Kufə hakimliyini əldə etmək üçün Şama gəlib belə bir plan hazırladı. O, bir gün Müaviyənin ”?oğlu Yezidi görüb dedi: “Bilmirəm nə üçün Müaviyə sənin haqqında səhlənkarlıq edir

.Yezid: “Necə?”-deyə soruşdu

Müğeyrə: “Nəyi gözləyir? Nə üçün səni özündən sonrakı xəlifə kimi xalqa təqdim .etmir?”-dedi

”.Yezid: “Atam elə təsəvvür edir ki, bu mümkün olan bir iş deyil

”.Müğeyrəb: “Bu mümkün olan bir işdir

”?Yezid: “Bu iş necə mümkün ola bilər

Müğeyrə: “Siz kimin itaət etməməsini təsəvvür edirsiniz? Biz şamlılar Müaviyənin bütün əmrlərinə itaət edirik, Mədinəyə də filan şəxsi göndərsəniz bu vəzifəni yaxşı yerinə yetirə bilər. İraq və Kufə isə bunların hamısından təhlükəlidir ki, onu da mən öz ”.öhdəmə alıram

Yezid atasının yanına gəlib Müğeyrənin dediklərini ona söylədi. Müaviyə oğlunun sözlərini eşitdikdən sonra Müğeyrəni öz yanına çağırtdırdı. Müğeyrə Kufəni susdurmağı öz üzərinə götürərək çox yaltıqlıq etdi və qənaətbəxş bir məntiqlə Müaviyəni bu işə zəmin yaratmağa razı saldı. Elə

buna görə də Müaviyə onu keçmiş vəzifəsinə qaytardı. Amma nə kufəlilər Müaviyənin təklifini qəbul etdilər və nə də mədinəlilər. Müaviyə çarəsizlikdən Mədinəyə gəlib imam Hüseyn əleyhissəlam, Əbdüllah ibni Zübeyr, Əbdüllah ibni Ömər və bu kimi xalq arasında hörmət və nüfuz sahibi olan Mədinə başçıları ilə görüşüb özünəməxsus :yaltaqlıqla dedi

İndi islamın məsləhəti belə tələb edir ki, hökumət zahirdə Yezidin öhdəsində olsun,“ amma bütün işlər sizin nəzərinizlə həyata keçirilsin. Xalq arasında ixtilaf yaranmasın deyə, hələlik beyət etməklə bütün işləri öhdənizə alın.” Amma onlardan heç biri Müaviyənin bu təklifini qəbul etmədi. Beləliklə onun bu planı müvəffəqiyyətsizliklə nəticələndi. Müaviyə sonralar Mədinə məscidində başqa bir hiyləyə əl ataraq mədinəlilərin keçmişdə və hal-hazırda onun təklifi ilə razı olduqlarını iddia etmək istədi. Onun bu hiyləsi də nəticəsiz qaldı. Müaviyə ölüm yatağında olarkən oğlu Yeziddən çox nigaran idi. Ona görə də bir sıra məsələləri oğluna xatırladaraq beyət almaq üçün Əbdüllah ibni Zübeyr və Əbdüllah ibni Ömərlə necə rəftar etməyi və eləcə də Hüseyn ibni Əli əleyhissəlamla çox mülayim davranmağın lazım

olduğunu bəyan etdi. O, öz sözlərinin davamında dedi: “Hüseyn Peyğəmbər övladı və müsəlmanlar arasında yüksək mövqeyə malik olan bir şəxsiyyətdir. Hüseyn ibni Əli ilə ədavətlə davranmaqdan qorx.” Müaviyə belə bir uzaqgörənlik etmişdi ki, əgər Yezid imam Hüseyn əleyhissəlamla düşmən kimi rəftar edib onun qanını axıtsa, artıq hökuməti əldə saxlaya bilməyəcək və bununla da əbusüfyan sülaləsi xilafətdən .uzaqlaşdırılacaqdır

Müaviyə çox hiyləgər idi və başqa siyasətbazlar kimi öngörənlik etdiyi hadisələrin çoxu düz çıxırdı. O, eləcə də baş verəcək hadisələri yaxşı başa düşür və təhlil edirdi. Amma əksinə olaraq, Yezid təcrübəsiz bir gənc idi və əvvəldən bir şahzadə kimi naz-nemət içində boya-başa çatmışdı. O, əyyaşlığa qurşandığı üçün siyasətdən baş çıxarmırdı. Gənclik qüruru, məqam və şöhrət düşgünlüyü onun vücuduna hakim kəsilmişdi. Əbu Süfyan sülaləsi hökumət və xilafətdən başqa heç bir məqsəd güdmürdü. Amma onlar heç bir vasitə ilə öz məqsədlərinə nail ola bilmədilər. Lakin imam Hüseyn əleyhissəlam şəhadət dərəcəsinə yüksəlməklə öz mənəvi hədəflərinə çata bildi. Müaviyə hicri tarix ilə ۶۰-cı ilin rəcəb ayının ۱۵-də

öldü. Yezid Bəni-üməyyə tayfasından olan Mədinə hakiminə bir məktub yazaraq atasının ölüm xəbərini ona yetirib, camaatdan özünə beyət almasını əmr etdi. O zaman Mədinə mərkəz olduğuna görə bütün gözlər oraya dikilmişdi. Yezid həmin səbəbə əsasən göndərdiyi məktubda tam qətiyyətlə yazırdı: "Hüseyn ibni Əlidən mənə ".beyət al, əks təqdirdə başını kəsib Şama göndər

Beləliklə imam Hüseyn əleyhissəlamın qarşılaşdığı məsələlərin biri də Yezid ibni Müaviynin beyət istəməsi idi. Ə

.Yezidin dövrü iki mühüm xüsusiyyətlə Müaviyənin zamanından fərqlənirdi

İmam Hüseyn əleyhissəlamın Yezidə beyət etməsi xilafətin varislik əsasında-۱ .olmamasını təsdiq edirdi

Yezid çox əxlaqsız bir adam idi və açıq-aşkar günah etməkdən çəkinmirdi. O, siyasi-۲ .cəhətdən də heç bir səlahiyyətə malik deyildi

Qeyd etmək lazımdır ki, Müaviyə və eləcə də Abbasi xəlifələrinin bir çoxu da əxlaqsız və günahkar adamlar idilər. Lakin onlar bunu yaxşı başa düşürdülər ki, hakimiyyətdə qalmaq üçün zahirdə də olsa, bir çox islam qanunlarına riayət etməli və onun hüdudlarını qorumağa

çalışmalıdırlar. Çünki onlar, islama qarşı biganə olduqları təqdirdə hökmranlıq edə bilməyəcəklərini başa düşürdülər. Müxtəlif soylara aid olan afrikalı, avropalı, asiyalı və xüsusilə də iranlı və ərəbistanlı müsəlmanların vahid bir hökumət tərkibində yaşamaqları, yalnız onların islam və Qurana etiqad etmələri və xəlifəni islami bir rəhbər kimi tanımaqları sayəsində mümkün olmuşdu. Məlumdur ki, müsəlmanlar xəlifənin islam qanunlarına laqeyidliyini, onun ziddinə əməl etdiyini duyar və dərhal öz ...müstəqilliklərini elan edərdilər

Çünki, İran, Şam, Suriya və Afrika əhalisinin Şam hökumətinə itaət etmələrinin heç bir lüzumu yox idi!! Ağıllı, siyasətçi və düşüncəli xəlifələr başa düşürdülər ki, zahirdə də olsa, müəyyən qədər islam qanunlarına riayət etməlidirlər. Lakin Yezid ibni Müaviyədə belə bir düşüncə və dərrakə də yox idi. Açıq-aydın hər cür günaha əl atan Yezid islama və camaata qarşı etinasızlıq edir, dini hüdudları aşmaqdan çəkinmir və aşkara çaxır içib, sərxoş halda məclisə daxil olurdu. Amma tarixdə bu kimi işlər Müaviyənin .haqqında söylənilməmişdir

Bütün tarixçilər Yezidin meymunbaz olduğunu yazmışlar. Onun əbaqeys ləqəbli çox sevdiyi bir

meymunu var idi. Anası bədəvi bir qadın olduğuna görə səhrada böyümüş və bədəvilik .xüsusiyyətlərinə malik olmuşdu. Buna görə də o, it və meymuna çox maraq göstərirdi

,Məsudinin Mürəvvicüz-zəhəb adlı kitabında yazdığına görə

Yezid bu meymuna ipəkdən toxunmuş rəngarəng paltarlar geyindirər, onu ölkənin .yüksək rütbəli siyasi və hərbi şəxsiyyətlərindən yuxarıda, öz yanında oturdardı

:İmam Hüseyn əleyhissəlam bu barədə buyururdu

".Müsəlmanların başçısı Yezid kimi bir şəxs olan zaman islamla vidalaşmaq gərəkdir"

Bəli, bu kimi alçaq bir şəxsin vücudu, islamın əleyhinə bir növ əks təbliğat idi. İmam Hüseyn əleyhissəlamdan belə bir şəxs üçün beyət istəyirlər, lakin o Həzrət bu işdən imtina edərək "Heç vaxt beyət etmərəm" deyir, onlar isə heç cürə bu fikirdən daşınmaq istəmirdilər. Beyətdən imtina etmək o deməkdir ki, İmam hökumət qarşısında heç bir məsuliyyət daşımır, onu rəsmiyyətlə tanımır, qayda-qanunları qəbul etmir və hökumətə qarşı etiraz fəryadı yüksəldirdi. Elə həmin səbəbə əsasən onlar, İmamın beyət etməməsini və xalq arasında

azad şəkildə yaşamasını qəbul edə bilmir və bu işi hökumətə qarşı böyük təhlükə sanırdılar. Belə bir şəraitdə İmam nə etməli və onların beyət tələbi qarşısında hansı !?mövqeyi seçməli idi

.İmam “beyət etmirəm”-deyə, cavab verdi

.Onlar “beyət etməsən səni öldürərik” dedilər

”.İmam buyurdu: “Mən ölümə hazıram, beyətə yox

Bəni-üməyyə tayfasından olan Mədinə hakimi imamı çağırtdırdı. Söz yox ki, Bəni-üməyyənin bütün üzvləri azğın və iyrənc adamlar idi, amma bu şəxs (Mədinə hakimi) başqaları ilə müəyyən qədər fərqli idi. İmam (ə) Abdullah ibni Zübeyr ilə birlikdə Mədinənin Rəsulullah məscidində idilər. Bu zaman hakimin məmurları içəri girib hər :ikisini hakimin yanına dəvət edərək dedi

:Hakim sizi istəyir və sizinlə işi vardır. İmam onun cavabında buyurdu

...Siz gedin, biz də sonra gələrik

Abdullah ibni Zübeyr “getməyimizin nə iradı vardır? O, ki, bizi indi istəyib”-deyə İmama müraciət etdi. İmam buyurdu: “Mənə elə gəlir ki, o, bizi beyət almaq üçün çağırır!” ”.Abdullah ibni Zübeyr: “Bəli, elə mən də sizin kimi düşünürəm

:İmam “səncə nə etməliyik?”-deyə Əbdüllahdan soruşdu

O, fikirləşib “sonra qərarımı söyləyərəm”-dedi. Abdullah gecə ikən kəsə yolla Məkkəyə .qaçdı

İmam əleyhissəlam isə Bəni Haşim gəncələrinin bir neçəsini öz ətrafına toplayıb buyurdu: “Siz eşikdə qalın, səsim ucalan zaman içəri daxil olun, amma astadan ”!danışsam yerinizdən tərpənməyin

Uzun illər Mədinə hakimi olan və alçaqlıqda şöhrət qazanmış Mərvan Həkəm məktubu .İmama təqdim etdi

”?Həzrət: “Nə istəyirsiniz

Mərvan çox yaltaqlıqla dedi: “Bütün xalq Yezidə beyət etməyə hazırdır, Müaviynin nəzəri də belədir və islamın məsləhəti də bunu tələb edir!! Sizin də beyət etmənizi xahiş edirəm, sizin bütün əmrlərinizə itaət olunacaqdır və buyurduğunuz nöqsanlar da ”.aradan qaldırılacaqdır

?İmam: Siz nə üçün məndən beyət istəyirsiniz

?Camaat üçün beyət istəyirsiniz, yoxsa Allah üçün

Siz başqalarını beyətə razı etmək üçün məndən beyət almaq istəyirsiniz, mənim bu :xəlvət otaqda sizə beyət etməyimin faydası nədir?!-buyurdu

.Hakim imamın sözünü təsdiq etdi

”.İmam buyurdu: “Qalsın sonraya, mən indi gedirəm

”!Hakim dedi: “Çox yaxşı, gedin

Mərvan ibni Həkəm dedi: Nə deyirsiniz? “Buyurun gedin” nə deməkdir?! Onun buradan ”.çıxıb getməsinin mənası budur ki, “mən beyət etmirəm və etməyəcəyəm də

.Mərvan irəli gedib “indicə xəlifənin əmrini yerinə yetirməlisən”-dedi

Bu söz onun ağzından çıxan kimi İmam onun yaxasından yapışıb göyə qaldırdı və var gücü ilə yerə çırparaq buyurdu: “Sənin bu sözləri deməyə ləyaqətin çatmır.” İmam oradan çıxıb getdi və üç gecə Mədinədə qaldı. O Həzrət gecələr Rəsuli-əkrəmin məzarı ”!üstünə gedib dua edərdi: “İlahi! Məni özün razı olduğun yola hidayət et

Bir gecə İmam əleyhissəlam dua edərək yatır və Rəsuli-əkrəmi yuxuda görür. Bu sadiq röya ona ilham və vəhy kimi bir hökm idi. Elə buna görə də o həzrət ertəsi gün Mədinədən çıxıb mərkəzi yolla Məkkəyə doğru hərəkət etdi. İmamla səfərə çıxanların bəzisi deyirdilər: “Sizin mərkəzi yolla getməyiniz məsləhət deyil, yaxşısı budur ki, naməlum cığırlarla gedəsiniz. Çünki mümkündür

hökumət məmurları yol uzunu sizin hərəkətinizə maneə törətməklə münaqişə !.yaratsınlar

Həzrət, igidlik və qəhrəmanlıq əhval-ruhiyyəsi ilə buyurudu: “Mən qaçaqçılar, oğrular və fərarilər kimi cığırlarla getmək istəmirəm. Mən mərkəzi yolla gedəcəyəm, hər şey ”...Allah istədiyi kimi olacaqdır

Demək, Yezidin imam Hüseyn əleyhissəlamdan beyət istəməsi bu qiyamın birinci amili :idi. Yezid xüsusi bir məktubda Mədinə hakiminə belə yazmışdı

Hüseyndən beyət almaq üçün onu yaxalayıb saxlayın.” İmam Hüseyn əleyhissəlam tam qətiyyətlə onların qarşısında dayanmış və heç bir vəchlə Yezidə beyət etməyəcəyini bildirmişdi. Kərbəlada ömrünün son anlarında da belə Ömər Səd gəlib danışıq yolu ilə imamı beyət etməyə razı salmaq istədikdə, o həzrət yenə də razı :olmayaraq elə həmin ilk gündə söylədiyi sözləri bir daha təkrar etdi

Yox! Allaha and olsun, heç vaxt sizlərə əl verib beyət etməyəcəyəm. Bu gün belə bir“ vəziyyətdə - öz ölümümü, əzizlərimin ölümünü və ailəmin əsir düşməsini gördüyüm ”.halda, yenə də Yezidə beyət etməyə razı deyiləm

### İkinci amil dəvət

Bəzilərinin dediklərinə əsasən, kufəlilərin dəvəti bu hərəkatın əsas səbəbi imiş. Müaviyənin ölümündən sonra kufəlilər Həzrəti İmam (ə)-ı Kufəyə çağırıb, onu xəlifə təyin etmək istəyirdilər. Halbuki məsələ belə deyilidi, çünki Rəcəb ayının sonu, Yezid hökmdarlığının əvvəlində İmam (ə) beyətdən imtina etdiyi üçün Məkkəyə getmişdi. Məkkə təhlükəsiz məkan və Allahın toxunulmaz hərəmi idi. Müsəlmanlar Məkkə şəhərini möhtərəm bildikləri üçün hökumət də naçar qalıb bu müqəddəs məkana .hörmətlə yanaşmalı idi

Müaviyə dünyadan getdikdən sonra hələ onun ölüm xəbəri Kufəyə çatmamış İmam Məkkəyə doğru yollandı. Çünki Məkkə təkcə təhlükəsiz bir yer yox, həm də müsəlmanların ictimai mərkəzi idi. Rəcəb və Şəban ayı həcci-ümrə mövsümü olduğuna görə, camaat ətraf kənd və şəhərlərdən Məkkəyə gəlirdilər. İmam əleyhissəlam isə camaata təbliğ etmək üçün bu müqəddəs məkana gəldi. Bu hadisədən bir-iki ay sonra kufəlilərin məktubu İmama gəlib çatdı. İmam Hüseyn əleyhissəlam Kufə camaatının göndərdiyi məktubları nəzərə almayaraq öz qiyamını Mədinədən başladı. Məktublar İmamın əlinə çatmamış İmam beyətdən

.imtina etmişdi. İmamın təbliğləri Yezidə böyük bir təhlükə yaratmışdı

Bununla belə Kufə camaatının dəvəti bu hərəkatın əsas amillərindən deyil, onda cüzi bir təsir yaradan səbəblərdən biri idi. Kufəlilərin bu işi (məktubları) İmama münasib bir şərait yaratdığı üçün təqdirə layiqdir. Çünki, əgər bu iş baş tutsaydı islam ordusunun böyük mərkəzi olan bir əyalət İmamın ixtiyarına verilirdi. Xatırladaq ki, Kufə şəhəri islami ölkələrin müqəddəratında çox mühüm rol ifa edirdi. Əgər kufəlilər bağladıqları əhd-peymana sadiq qalsaydılar, mütləq imam Hüseyn əleyhissəlam müvəffəqiyyət qazanardı. O zaman Kufəni Məkkə, Mədinə və Xorasanla müqayisə etmək olmazdı. Şam Kufənin yeganə rəqibi idi. O zaman islamın iki mühüm mərkəzi var idi - biri Kufə, digəri isə Şam. Kufə əhalisinin dəvəti bu hərəkatın formalaşmasında olduqca böyük təsir göstərdi. İmam Hüseyn əleyhissəlam Məkkə münaqişə mərkəzi olmasın deyə, oradan çıxdı. Çünki belə bir şəraitdə oranı mərkəz seçmək heç cür məsləhət deyildi. Kufəlilərin dəvəti ibni Abbasın təklifinin rədd olmasına səbəb oldu. İbni Abbas "siz Yəmən dağalarına gedib oranı özünüzə sığınacaq edin!"-deyə İmama təklif etmişdi. İmam onun bu

...təklifini qəbul etməyib cəddinin şəhəri Mədinədə çıxıb Kufəyə doğru yollandı

Bununla belə bu dəvət əsas məsələ sayılmırdı və bu iş ancaq qiyamın İraqda baş .verməsinə və İmamın Kufəyə gəlməsinə səbəb oldu

Çünki o Həzrət Kufə sərhəddində "Hürr" ordusu ilə rastlaşdıqda kufəlilərə xitabən :buyurdu

Siz məni çağırmısınız, istəmisiniz mən də gəlmişəm, belə edirsinizsə qayıdıb" gedərəm." Bu o demək deyil ki, İmam (ə) Yezidə beyət edib əmr be məruf və nəhy əz münkər məsələsinə göz yumsun və ya evdə oturub heç bir işlə məşğul olmasın. İmam :bütün bu çətinliklərə baxmayaraq qətiyyətlə buyurdu

Biz öz əsl mərkəzimiz olan Məkkə, Mədinə və yaxud Hicaza qayıdırıq həyatımızı bu ".yolda itirsək də belə beyət etməyəcəyik

:İmamın Kufəyə çatana kimi iki-üç yerdə nitq söyləməsini görürük

Siz mənə məktub yazmısınız! Nümayəndəmə beyət etmisiniz! Siz dəvət etdiyiniz üçün“ ”...mən gəlmişəm, istəməsəydiniz gəlməzdim və

Bu sözlər o demək deyil ki, siz dəvət etməsəydiniz mən də bu fikirdən daşınıb Yezidə beyət edərdim. İmam bu sözlərlə demək istəyirdi ki, əgər siz çağırmasaydınız mən Kufəyə yox, Bəsrəyə, Xorasana, Yəmənə gedərdim və yaxud Məkkədən çıxmayıb elə oradaca qalardım. Mən öləcəyimi yəqin bilsəydim də beyətdən imtina edərək öz etirazımı bildirərdim, cəddimin şəhəri Mədinəyə gedib orada dostum, köməkçim !olmasaydı da belə, son nəfəsədək müqavimət göstərib beyət etməzdim

İmam bu amilin təsirindən Məkkədən Kufəyə gəldi. Əlbəttə demək istəmirəm ki, əgər onlar imamı dəvət etməsəydilər, o Həzrət mütləq Mədinədə qalacaqdı. Tarix göstərir ki, İmam Mədinədə qalmağa razı deyilmiş, Məkkənin də vəziyyəti Kufədən yaxşı deyildi. Tarixdə mövcud olan bir çox faktlara əsasən, onlar İmam beyət etmədiyi .təqdirdə onu öldürmək qərarına gəlmişdilər

:Kuleyni və başqaları rəvayət etmişlər

səh:۲۶

Artıq İmam bu məsələdən xəbərdar oldu, əgər o Həzrət həcc mərasimində Məkkədə“ qalsaydı, ehram halında ikən Bəni-üməyyənin silahlı qüvvələri vasitəsilə öz qanına qəltan ola bilərdi. Belə bir iş Kəbə evinə, həcc mərasiminə və islama qarşı hörmətsizlik :hesab edilərdi. Demək iki hörmətsizlik

;Peyğəmbər balasına ibadətlə məşğul olduğu halda hörmətsizlik-١

Allah evinə hörmətsizlik; Bundan əlavə onlar “Hüseyn ibni Əli (ə) naməlum bir şəxs-٢ tərəfindən öldürülüb, qatil isə qaçıbdır”-deyə, İmamın qanını hədərə verər və öz .cinayətlərinin üstünü ört-basdır edərdilər

İmam (ə) ona “Məkkə və Mədinə təhlükəsiz yer idi, nə üçün oradan çıxıb özünü bəlaya saldın?”-deyə müarciət edənlərin cavabında buyurdu: “Mən heyvanların yuvasında da gizlənsəm, onlar mənim qanımı axıtmayınca əl çəkən deyillər. Mənimlə onların arasındakı ixtilaf həll olunası deyil, onlar məndən heç vaxt qəbul edə bilməyəcəyim bir ”.şeyi tələb edirlər. Onlar da heç cür mənim istəkəlrimi yerinə yetirməyə hazır deyillər

## Üçüncü amil əmr be məruf

### İşarə

.Bu amil imamın öz tərəfindən açıq-aydın şəkildə təsdiq olunan bir məsələdir

Tarixi qeydlərə əsasən, o zaman imamın qardaşı Məhəmməd Hənəfiyyə əlil olduğu üçün cihadda iştirak edə bilmədi və buna görə də Həzrət yazdığı vəsiyyətnaməni ona tapşırdı. İmam, gələcəkdə cəddinin dinindən çıxmaqda ittiham olunacağını bildiyinə görə, vəsiyyətnamədə Allahın birliyinə və Peyğəmbərin nübüvvətinə şəhadət verərək :öz qiyamının sirrini belə açıqlamışdır

.Onlar məndən beyət istəməsələr də belə, susmayacağam

Bütün dünya bilməlidir ki, Hüseyn ibni Əli (ə) şöhrət və məqamı öz qarşısına məqsəd .qoymamış, mal-dövlət dalınca gəzməmiş, fasid, zalım və riyakar da olmamışdır

Bu ruhiyyə elə həmin ilk gündən başlayaraq son anlara qədər onun vücudunda .cilvələnmişdi

Ömrünün axır dəqiqələrində görürük ki, o həzrət yenə də ayağa qalxıb qeyrət, şücaət :və igidlik göstərir, uca səslə fəryad qoparıb deyir

Ey əbi Süfyan sülaləsinə tabe olanlar, əgər Allahı tanımayıb qiyamət gününə etiqad“ ”.etmirsinizsə, heç olmasa dünyada azad yaşayın

Bu üç amil əhəmiyyət etibari ilə eyni dərəcədə olmasalar da, imamın hərəkatında hər birinin müəyyən rolu vardır. Kufəlilərin dəvəti elə bir mühüm məsələ deyildi. Çünki hərbi qüvvəsi olan bir vilayətin öz hazırlığını elan etməsi zahiri baxımdan zəfər və tərəqqi üçün təsirlidir. Amma elə ilk günlərdən ortaya çıxan beyət məsələsi bu hərəkatın formalaşmasında mühüm təsir göstərdi. Yadda saxlamaq lazımdır ki, hərəkatdan qabaq kimsə onu dəvət etməmişdi və İmam (ə) bundan çox-çox əvvəl öz əhdinə sadiq qalacağını elan etmişdi. O dövrdə zalım və silahlı bir hökumət öz düşmənçilik siyasəti nəticəsində elə bir vəziyyət yaratmışdı ki, Müaviyənin hakimiyyəti altında olan yerlərdə, o cümlədən Məkkə və Mədinədə xalq, cümə günləri (cümə namazında) əli ibni əbi Talibə lənət deyir, bu işi savab bir iş kimi qiymətləndirir və müsəlmanların beytül-malını bu yolda xərcləyirdilər. Müaviyə Peyğəməbrin hədislərini dəyişdirib saxtalaşdırmaq üçün bir çox ruhanilərə xüsusi maliyyə yardımları edirdi. Elə həmin ruhanilər Peyğəmbərin hədislərində olan adları dəyişib Əli (ə)-ın düşmənlərinin .tərifinə dair çoxlu saxta hədislər düzəltmişdilər

Tarixçilərin yazdıqlarına əsasən, Səmrət ibni Cəndəb səkkiz min misqal qızıl alıb əli ibni .əbi Talib (ə)-ın əleyhinə bir hədis dəyişdirmişdi

Bununla yanaşı tarixi dəyişmək də onların əlində çox çətin iş deyildi. Söz yox ki, sonralar tarixin bir hissəsi olduğu kimi qaldı və demək olar ki, bu da Hüseyn əleyhissəlamın hərəkatı kimi fədakar işlərin sayəsində idi. Əgər imam Hüseyn əleyhissəlam sükut edib dinməsəydi, tarix bütünlükdə dəyişdiriləcəkdi! Beləliklə imam .Hüseyn əleyhissəlamın qiyamında beyət məsələsi olduqca əhəmiyyətli idi

Üçüncü amil isə əmr be məruf və nəhy əz münkərdir. İmam beyət məsələsini nəzərə almayaraq, Peyğəmbərin bu sahədəki hədis və məqsədlərini açıq-aşkar bəyan edir, dönə-dönə əmr be məruf və nəhy əz münkər məsələsinə toxunurdu. Demək bu amil başqa iki amildən daha əhəmiyyətli idi. Məhz bu səbəbdən də bu qiyam indiyədək öz etibarını itirməyib və heç vaxt itirməyəcək də. Bu qiyamın bütün amilləri dərs olmalıdır, lakin üçüncü amilin təsiri olduqca dərindir. Çünki dəvət və beyət məsələsi olmasaydı da, İmam sükut etməyib əmr be məruf və nəhy əz münkər hökmünü yerinə yetirmək üçün qiyam edərdi. Burada birinci amil

dəvət) ilə üçüncü amil (əmr be məruf və nəhy əz münkər) arasındakı fərqlər) .aydınlaşır

:Beyət məsələsində imamdan bir şey istəyirlər, İmam isə onların cavabında buyurur

Sizin istədiyinizi yerinə yetirə bilmərəm. Demək bu qiyamın amili təkcə dəvət və ya“ beyət olsaydı, kufəlilər dəvət etməsəydilər və hökumət o Həzrətdən beyət istəməsəydi Hüseyn əleyhissəlamın onlarla işi olmazdı, özü isə rahat olardı və bir hadisə də baş verməzdi. Amma üçüncü səbəbə görə imam Hüseyn əleyhissəlam ...etiraz edən, tənqidçi, qiyamçı, müsbət bir insan idi

Bununla belə qiyam üçün başqa bir amil lazım deyildi. Fəsad hər yerə yayılmış, Allahın haramı halal, halalı isə haram edilmiş, müsəlmanların beytül-malı bir tayfanın əlinə .düşərək qeyri-şəri yolla sərf edilirdi

Peyğəmbər (s) buyurmuşdu: “Hər kim belə bir vəziyyəti görüb etraz etməsə, şəraiti dəyişməyə cəhd göstərməzsə, Allah qanunu üzrə belə adamların zalım, sitəmkar və ”.Allahın dinini dəyişdirənlərə layiq olan yerə aparılmaları yaxşıdır

İmam cəddinin buyurduğuna əsaslanaraq deyir: “Belə bir şəraitdə vəziyyəti başa düşənlər etiraz

etməsələr, cəmiyyətin günahkarları ilə eyni taledə olacaqlar!! Bu birinci hədis deyil və bu barədə Peyğəmbəri-əkrəm (s)-dan çoxlu hədislər nəql olunmuşdur. İmam Rza :əleyhissəlam Peyğəmbərdən nəql etdiyi bir hədisdə buyurur

Camaat əmr be məruf və nəhy əz münkər vəzifəsini bir-birinin öhdəsinə qoymaqla“ sükut edib digərlərinin bu işi yerinə yetirməsini gözləsə, onlar da sükut edib başqalarının bu məsuliyyəti həyata keçirməsini gözləyər, nəticədə kimsə bir iş görməz. Belə bir halda onlar Allahın əzabını gözləsinlər.” Görəsən Allahın əzabı göydən daş :yağmaqdır! Yox, Quran Allahın əzabını belə təfsir edir

De ki: “Allah başınızın üstündə və ayaqlarınızın altında [göydən və yerdən] sizə əzab göndərməyə, sizi dəstələr halında qarışdırmağa və bir-birinizə digərinin zorunu .dadızdırmağa qadirdir!” Gör onlar başa düşsün deyə, ayələrimizi nə cür izah edirik

:Rəsuli-əkrəm buyurmuşdur

Əmr be məruf və nəhy əz münkər məsələsinə göz yumanlar mütləq, Allahın əzabını“ .gözləməlidirlər

Burada mərhum Kuleyninin “Üsuli-kafi”də və Qəzalinin “Ehyaül-ülum”da sünni və şiə

:alimlərindən rəvayət etdikləri hədisi gətirməyi lazım görürük

əmr be məruf və nəhy əz münkər sizin aranızda olmalıdır, belə olmazsa bütün pislikləriniz sizə üstün gələr, onda sizin yaxşı adamlarınız da Allahdan bir şey istədikdə .onların duası qəbul olunmaz

:Qəzali bu hədisi belə təfsir edir

Bu sözlərin mənası o demək deyildir ki, onlar Allahı səsləyirlər, amma Allah onların duasını qəbul etmir, əksinə onlar o qədər alçalır və qorxuları da aradan gedir ki, Allah !dərgahına üz gətirdikdə onlara etina olunmur

Peyğəmbər (s) buyurmuşdur: “Öz izzətinizi istəyirsinizsə əmr be məruf və nəhy əz münkər edin ki, düşmən də sizdən çəkinsin. Amma əmr be məruf və nəhy əz münkər etməsəniz ilk mərhələdə sarsılıb alçalarsınız və düşmən də sizi saya salmaz. Bir qul və :kölə kimi yalvarsanız da belə, kimsə cavabınızı verməz

.Rəhimsiz dünyada nəyə lazımdır

.Oturub ağanın yolunu, güdmək

.Dözüm ilə zəfər birdir əzəldən

.Dözümlə zəfərə çatarsan demək

səh:۳۳

.Mənim fikrimcə bu şer incə bir məna daşıyır

Hər halda islamda bizim belə bir qəti əsasımız vardır. İmam da bu əsasa istinad edərək buyurmuşdu: “Əgər camaat məni dəvət etməsəydi də, mən bu əsas üzrə sakit oturmazdım.” əmr be məruf böyük əhəmiyyətə malik olduğu üçün səmavi kitabımız Quranda da bu mövzu ilə əlaqədar çoxlu ayələr vardır. Quranda, əmr be məruf və nəhy əz münkər məsələsini unudan bir çox bədbəxt millətlərin acı keçmişi nəql :olunmuşdur

Barı sizdən əvvəlki nəsillərin ağıl və fəzilət sahibləri yer üzündə fitnə-fəsad törətməyi“ .qadağan edəydilər ki, bu millətlər fəsad nəticəsində məhv olmayaydılar

:Quran başqa bir qövmün barəsində buyurur

Onlar etdikləri pis əməldən əl çəkmirdilər [və ya onlar bir-birlərini pis əməldən“ !çəkindirmirdilər]. Onların gördükləri iş necə də pis idi

Ey müsəlmanlar!] içərinizdə insanları yaxşılığa çağıran, xeyirli işlər görməyə əmr]“ edən və pis əməlləri qadağan edən bir dəstə olsun! Bunlar [bu dəstə], həqiqətən nicat ”.tapmış şəxslərdir

Ali-İmran surəsində əmr be məruf və nəhy əz münkərə aid olan ayələr çoxdur. Qeyd :etmək lazımdır ki, indicə nəql edəcəyimiz ayədə buyurulur

".Hamınız bir yerdə Allahın ipindən [dinindən] yapışın"

Ey müsəlmanlar! Təfriqə və ixtilafdan çəkinin, baş verən ixtilafların aradan .qaldırılmasına çalışın, təfriqələri azaldın. Bu ixtilafdan yalnız düşmənlər istifadə edirlər

İslam düşmənləri bizi müxtəlif məzhəb adları ilə bir-birimizin canımıza salmaqdan :başqa bir şey tələb edirmi? Sonra buyurur

Burada "xeyir" sözündən məqsəd birlikdir. Aranızdakı ixtilafları ortadan qaldırmaq .üçün həmişə müəyyən bir dəstə olmalıdır

:Quran başaq bir yerdə buyurur

Allahın tərəfindən] açıq-aydın dəlillər gəldikdən sonra, bir-birindən ayrılan və ixtilaf"] ".törədən şəxslər kimi olmayın! Onlar böyük bir əzaba düçar olacaqlar

Maraqlıdır ki, vəhdət və təfriqədən çəkinməyə dəvət edən iki ayənin arasında Ali-İmran surəsinin ۱۰۴-cü ayəsi gəlmişdir. Məlum olur ki, Quran qarşılıqlı razılaşma və birliyi bütün yaxşılıqların

qaynağı bilir və bu mövzu əmr be məruf və nəhy əz münkər məsələsinin mühüm .olduğunu göstərir

Bu mövzu islam dinində olduqca əhəmiyyətlidir. Görəsən nə üçün tarix boyu islam ?dünyasında bu qədər əhəmiyyətli olan mövzu unudulmuşdur

İnsafla desək, sünnilər öz kitablarında bu barədə şiələrdən daha artıq bəhs etmişlər. Əgər biz fiqh kitablarını “səlat”dan tutmuş “diyat”a kimi tədqiq etsək və bu ümumi fiqhi şiə fiqhi isə müqayisə etsək görərik ki, bütün mövzularda şiə fiqhi daha dəqiq, izahlı, mötəbər və istidlallıdır. Ancaq bu qədər mövzuların arasında əmr be məruf və nəhy əz münkər mövzusuna çatdıqda görürük ki, təəssüflə bu sahədə çox səhlənkarlıq .olmuşdur. Əlbəttə bu nöqsan xalq arasında aydın şəkildə görsənməkdədir

Mötəzilə” dəstəsi sünni məzhəbinin kəlami firqələrindən biridir. Onlar əmr be məruf“ .və nəhy əz münkəri füruidin məsələlərindən deyil, üsulidindən sanırlar

:İctimai tarixi yazanlar deyirlər

Bu mübahisənin kənara qoyulması o zamanın siyasətləri ilə bağlı idi. Çünki bu barədə mübahisə etmək o dövrün xəlifələrinə toxunurdu. Nəticədə alimlər öz kitablarında bu bəhsi az gətirmiş, yaxud

da ona ümumiyyətlə toxunmamışlar. Baxmayaraq ki, əmr be məruf və nəhy əz .münkər onların dini əsaslarından biri idi

İnsafla desək, bizim kitablarda bu mövzu çox qısa şəkildə bəyan edilmişdir. Şeyx Bəhainin Camei-əbbas kitabı mən gördüyüm şəriət hökmlərinin sonuncu əməliyyə risaləsirdir ki, onda əmr be məruf və nəhy əz münkər məsələsinə yer verilmişdir. Bu kitab dörd əsr bundan əvvələ aiddir. Ondan sonra bu mövzu bütün əməliyyə risalələrindən çıxarılmışdır. Halbuki o «əbd» və «İma» məsələsi kimi öz əhəmiyyətini itirmiş mövzulardan deyil, oruc-namaz kimi həmişə qüvvədə olan vacib hökmlərdəndir. Buna əsasən əmr be məruf və nəhy əz münkər məsələsi heç vaxt .unudulmamalıdır

Burada bəzi şərqşünaslar dönə-dönə islama qarşı iftiralar söyləyib, öz kitablarında dəfələrlə əsassız məsələlər yazıblar. Bütün bunlarla bağlı gördüyüm şeyləri "İnsan və sərneveşt" (İnsan və tale) adlı kitabımda qeydə almışam. Avropa şərqşünaslarının :bəzisi islam haqqında belə ittihamlar söyləyirlər

**Mözünün ardı**

İslam qəzavü-qədər dini olub insan qarşısında heç bir məsuliyyət müəyyən" etməmişdir. Bu din insan fəaliyyətinin qarşısını alır... [İslamda bütün işlər Allahın ixtiyarına qoyulur və Onun iradəsinə

"...tapşırılır.] İnsan ixtiyar sahibi deyil, elə buna görə də heç bir məsuliyyəti yoxdur

.Məncə bu sözlərin hamısı iftiradır

Allah, Quranda yəhudiləri həzrət Musaya (ə) buna bənzər sözlər dediklərinə görə :məhkum etmişdir. Onlar Musaya (ə) deyirdilər

Ey Musa, nə qədər ki, onlar oradadırlar, biz oraya girməyəcəyik, sən və Rəbbin gedib" ".onlarla vuruşun. Biz isə burada oturacağıq

:Peyğəmbəri-əkrəm Bədr davasında öz səhabələri ilə məşvərət edərkən buyurdu

"?Sizin nəzəriniz nədir? Biz düşmənin qarşısına çıxaq, ya Mədinəyə qayıdaq"

:Miqdad dedi

Ey Rəsulullah! Biz Bəni-israil kimi deyilik, bizim işimiz yoxdur, siz əmr edənə əməl" edəcəyik, əgər dəryaya atılmağımızı və yaxud oda girməyəmizi əmr etsəniz biz dərhal ".sənin sözünü həyata keçirəcəyik

Quran insanın azadlığı, öz taleyi ilə əlaqədar məsuliyyəti, müstəqiliyyi və vəzifəsi :barədə belə buyurur

Biz ona haqq yolu göstərdik. İstər [nemətlərimizə] minnətdar olsun, istər nankor [bu" ".[onun öz işidir

Biz ona iki yol göstərmədikmi?! Lakin o, əqəbəni [sərt yoxuşu, maniəni] keçə bilmədi.“ Bilirsənmi, əqəbə nədir?! O, bir kölə azad etmək, yaxud aclıq zamanı yemək vermək və ”.ya qohumluq əlaqəsi çatan bir şəxsə baş vurmaqdır

Mömin olub axirəti istəyən və onun uğrunda çalışanların zəhməti [Allah dərgahında]“ ”.qəbul olunur

”!Sizə üz verən hər bir müsibət öz əllərinizlə qazandığınız günahların ucbatındandır“

Vay o şəxslərin halına ki, öz əlləri ilə kitab yazıb, sonra bir az pul almaqdan ötrü: “Bu“ !Allah tərəfindəndir!”-deyirlər. öz əlləri ilə kitab yazdıqlarına görə vay onların halına

”!Qazandıqları şeylər üçün vay onların halına

İnsanlar öz əlləri ilə etdikləri pis əməllər üzündən suda və quruda fəsad və pozğunluq“ əmələ gələr ki, Allah onlara etdikləri bəzi günahların cəzasını dadızdırsın, bəlkə onlar qayıdalar.” Quranda insanın azadlığı və ixtiyarı ilə əlaqədar bir çox ayələr vardır. ...Quranın ayələrini dəyişdirmək olmaz ki

Quran, bizə Allaha şər və fəsad işləri aid etməyək deyə, Tanrının bütün nöqsanlardan :uzaq olduğunu bildirir

".Bədbəxt insanlara biz zül etməmişik, lakin onlar özləri özlərinə zülm etmişlər"

.Bu sahədə Qurani-məciddə çoxlu ayələr vardır

Şərqşünasların uydurduqları yalanların əksinə olaraq, islam insanı təkcə Allah qarşısında deyil, cəmiyyətin qarşısında da cavabdeh görür. Əmr be məruf və nəhy əz .münkər də elə budur

?İndi şərqşünasların dediyi kimi, bu dini qəzavü-qədər dini adlandıra bilərikmi

Quran onların dediyi qəzvaü-qədəri təsdiq etmir. Allah Quranın başqa bir yerində :buyurur

Məşhur bir mənaya görə, bu ayə, həmişə Tanrının qeyri-adi bir yolla işləri sahmana salmasını gözləyənlərin ümidini boşa çıxarır. Bu ayədə tədqiq və təkiddən söz getmişdir. Yəni bir cəmiyyətin əhalisi öz vəziyyətələrinin dəyişilməsi uğrunda .çalışmazsa, Allah da onların vəziyyətini onların xeyrinə dəyişdirməz

Görəsən bundan da ağır bir məsuliyyət tapılarmı? özü də cəmiyyət qarşısında olan bir .məsuliyyət

:Quran başaq iki şərif ayədə keçmiş ümmətlərdən birinin taleyini açıqlayaraq buyurur

"O qövm öz vəziyyətini dəyişdirmədiyinə görə Allah da onların vəzyyətlərini ".dəyişdirmədi

Bu ayə demək istəyir ki, biz, Peyğəmbər göndərməmiş [heç bir ümmətə] əzab“ ”!vermərik

Buna görə də insan öz fikri ilə qərara gəlməlidir. İnsan, ancaq müstəqil bir fikir, bacarıq .və qabiliyyət sayəsində öz vəziyyətini sahmana sala bilər

Camaat başqalarının gəlib onların vəziyyətini sahmana salmasını gözləməməlidir. Tədbir və göstərişləri xarici məsləhətçilər tərəfindən verilən bir cəmiyyət, heç vaxt müvəffəq ola bilməyəcəkdir. İnsan öz düşüncə, təşəbbüs və bacarığı ilə öz yaşayışına bir həyat proqramı hazırlamalıdır. Bu şəraitə malik olan bir xalq Allahın rəhmət və mərhəmətini gözləyə bilər. Bihudə yerə intizar çəkmək yaxşı bir iş olsaydı, bir ümmətin içində Hüseyn ibni Əli əleyhissəlam Allahın rəhmətinin intizarını çəkmək üçün hamıdan .daha ləyaqətli olardı

Hüseyn əleyhissəlam “İnnəllahə la yuğəyyiru ma bi qəvmin hətta yuğəyyuru ma bi ənfusihim” ayəsinin dediyi kimi olmaq istəyirdi. İşlərin gedişini öz nəzarəti altına alaraq, cəddi həzrət Peyğəmbər kimi öz ictimaiyyətində bir islahat yaratmaq istəyirdi. :İmam özü demişkən

Asan işlər çoxlarına asandır, lakin islam həmişə bu işlərlə idarə oluna bilməz. Bəzi vaxtlar iş o yerə

çatır ki, Hüseyn ibni Əli (ə) kimi bir insanın hərəkətə gəlib, əks-əməl göstərməsi tələb olunur. O, da bütün islam cəmiyyətini silkələyir və nəticəsi əsrlər boyu müxtəlif surətlərdə zahir olan, yüzlər və minlərcə illər sonra da baş verən hərəkətlərin ilham qaynağına çevrilən hərəkat yaradır. Bu isə qeyd olunan ayənin aşkar nümunəsidir. Biz öz uşaqlarımızı sevdiyimiz halda, necə ola bilər ki, Hüseyn ibni Əli əleyhissəlam öz ?övladlarına qarşı biganə olsun

Şübhəsiz o, öz uşaqlarını bizim öz uşaqlarımızı sevdiyimizdən daha artıq sevərdi. Çünki .onun insaniyyət və ülvi duyğuları bizdən qat-qat çox idi

Həzrət İbrahim də yüksək insani duyğulara malik olduğu üçün öz balasını çox sevirdi. O həzrət eyni halda Allahı hər şeydən və hamıdan çox sevirdi və onun qarşısında hər .bir şeyi unudurdu

Yuxarıda qeyd etdiyimiz səbəblərə əsasən, İmam (ə)-ın qiyamı bütün qiyamlardan üstündür və həmişə canlı qalıb tarix səhifələrində parlayır, insanlara əbədi dərs .verərək misilsiz bir hərəkat kimi tanınır

Elə buna görə də biz islam nöqteyi-nəzərindən əmr be məruf və nəhy əz münkəri tanımalı və bu əsasın bu qədər əhəmiyyətli olduğunun səbəbini

başa düşməliyik. Bu məsələ o qədər əhəmiyyətlidir ki, Hüseyn ibni Əli (ə) kimi böyük bir şəxsiyyəti bu yolda canından keçməyə və bütün əzizlərinin, ardıcıllarının, dostları və səhabələrinin qanının töküləcəyini bilərək, dünyada misli görünməyən bir faciəni qəbul .etməyə vadar etmişdir

:İndi min neçə yüz ildən sonra yeri vardır ki, imamın önündə durub şəhadət verək

Şəhadət veririk ki, sən namazı dirçəldib yüksəltdin, zəkatı yerinə yetirdin. Çünki zəkat təkcə pul vermək deyildir, nitqin zəkatı var, fikir və əqlin də zəkatı vardır. Daha doğrusu, vücudun da zəkatı vardır... Allahın bizə bəxş etdiyi hər bir nemətin zəkatı vardır. Siz hər vaxt bu nemətlərin səmərəsini Allah bəndələrinin ixtiyarına qoysanız, o .nemətin zəkatını vermiş olarsınız

:Allah-təala "Bəqərə" surəsində buyurur

Qeyb aləminə iman gətirib namaz qılanlar, onlara əta etdiklərimizdən Allah yolunda" bağışlayanlar həqiqətən mömin və təqvalıdırlar." İmam, "Bizim onlara verdiklərimizdən bağışlayarlar" nə deməkdir?-deyə soruşanların cavabında buyurdu: ".“Zəkat təkcə mal-dövlət haqqında deyil

Məsələn, əgər siz başqalarının bilmədiyi bir elmə maliksinizsə, bildiyiniz elm .faydalıdırsa, o elmi möhtac olanlara öyrətməklə onun zəkatını ödəməlisiniz

Sən namaz qılıb zəkatı ödədin, əmr be məruf və nəhy əz münkəri yerinə yetirdin.“ (Yəni əmr be məruf və nəhy əz münkər bu hərəkatın əsas məqsədidir). Var gücünlə ”.Allah yolunda hər bir insana layiq olan bir şəkildə çalışdın

Burada diqqətimizi cəlb edən bir mövzu var, o da bundan ibarətdir ki, görəsən bu ?təsdiqlər nə üçündür

Adətən biz, hakimə yəqin olmayan bir sözü sübut etmək üçün onun yanına gedirik. Məsələn, bir iddianı sübut etmək üçün deyərik: “Mən şəhadət verirəm ki, bu şəxs filankəsdən müəyyən qədər pul almışdır.” İndi biz burada İmam əleyhissəlamın xeyrinə şəhadət vermək istəyirikmi? əsla belə deyildir, burada bəzi alimlər çox gözəl :bir mövzuda söz açırlar

İnsan bəzi vaxtlar dediyi sözü başqasına bildirmək üçün yox, bu mənanı başa .düşdüyünü ona göstərmək üçün deyir

Bu, düzgün bir işdir. Siz bəzən bir adamın qarşısında bir şeyə şəhadət verirsiniz, ancaq bunu

onun bilməsi üçün yox, (çünki o özü bilir) özünüzün bu mövzunu başa düşdüyünüzü .ona demək istəyirsiniz

Burada şahidlik etiraf mənasındadır. Məsələn, mən etiraf edirəm ki, sənin qiyamın əmr be məruf və nəhy əz münkər məsələsinə görə idi. Mən sənin kufəlilərin dəvətinə görə qiyam etmədiyini bilirəm. Sən beyət məsələsi üçün qiyam etmədin, sənin qiyamın başqa bir mənanı əks etdirir. Sən başqa bir qanununu həyata keçirirdin, o qanun əmr .be məruf və nəhy əz münkər idi

İnsan əməlinin cismi və ruhu vardır, ola bilər ki, "sən" və "mən" bir işi eyni şəkildə görək, nümunə üçün hər ikimiz namza qılıb infaq edirik və bunlar cismi baxımdan bir-biri ilə fərqlənmir. Ola bilər ki, səndə olan ixlas, təvazökarlıq, məhəbbət, eşq və ruhi həyacan məndə olmasın. Məhz bu ruhi sifətlər sizin işinizi dəyərləndirər və ona .müqəddəs rəng bəxş edər

Çoxları Allah yolunda cihad etmişlər və hal-hazırda edirlər də, amma nəyə görə Əli (ə) bir zərbə ilə bu qədər dəyər qazandı? Ariflərin dediyinə görə əli əleyhissəlam "Allahda fani olmaq" dərəcəsinə çatmışdı. O həzrət elə bir mərhələyə çatmışdı ki, düşmən onun mübarək üzünə , bu hərəkət onun

ruhiyyəsinə təsir etməsin deyə, düşmənin başını kəsməyi təxirə saldı. Demək o, öz varlığını deyil, Allahın varlığını istəyirdi, bu xüsusiyyəti yalnız övliyalarda və :peyğəmbərlərdə görə bilərik. Quran övliyaların barəsində belə buyurur

Onlar Allaha] tövbə, ibadət və şükr-səna edənlər, oruc tutanlar [və ya cihad uğrunda,] elm təhsil etmək üçün yurdundan ayrılıb başqa yerlərə gedənlər], rüku və səcdə .edənlər [namaz qılanlar], yaxşı işlər görməyi əmr edib pis işləri yasaq edənlərdir

"!Ya Məhəmməd!] Belə möminləri [cənnətlə] müjdələ]

Alimlər "səyahət" sözünün izahı haqqında müxtəlif fikirlər irəli sürmüşlər. Bəziləri :demişlər

Burada səyahət sözündən məqsəd oruc tutmaqdır, yəni, mənəvi səyahət orucluqda" əmələ gəlir. Amma bir çox tədqiqatçılar, o cümlədən əllamə Təbatəbai "Əl-mizan" kitabında bunu qəbul etməyərək deyir: "Burada səyahətçidən məqsəd yer üzündə seyr edən adamlardır, çünki Quran insanları yer üzündə seyr etməyə dəvət etmişdir. İslam dini bəşərin yer üzündə səyahət etməklə tarixi araşdıraraq ondan ibrət dərsi almasını yüksək dərəcədə qiymətləndirir. Allah-təala Quranda buyurur:

"Ey müsəlmanlar! Sizdən əvvəl bir çox vaqiələr [ibrətli əhvalatlar] olub keçmişdir. İndi yer üzünü dolaşıb haqqı təkzib edənlərin aqibətinin necə olduğunu görün!"

Sonra Quran ibadət nişanələrinin ikisini qeyd etmişdir:

Rükuda "Subhanə rəbbiyəl əzimi və bihəmdih" və səcdədə "Subhanə rəbbiyəl əla və bihəmdih" deyənlər, belə bir əhval-ruhiyyə, düşüncə və mənəvi dəyərlərə malik olduqları üçün cəmiyyətin islahatçısı olmağa daha layiqdirlər. Cəmiyyətin islahatçısı olmaq istəyənlər, özlərini ancaq mənəviyyat sahəsində tərbiyə etməlidirlər.

Həzrəti əli əleyhissəlam Nəhcül-bəlağədə buyurur:

Özünü camaata rəhbər və qabaqcıl tanıtdıran şəxs, ilk mərhələdə özünü islah etməli“ və nəfsindən hesab çəkməlidir. Yalnız bu xüsusiyyətlərə malik olan şəxs, “mən cəmiyyətin rəhbəri, vaizi, yolgöstərəni, müəllimi, tərbiyəçisi və islahatçısıyam”-deyə ”.iddia edə bilər

:O həzrət öz sözlərinin davamında buyurur

Özünü tərbiyə edən şəxs başqalarının təlim-tərbiyəsi ilə məşğul olan şəxsdən daha“ ”.artıq hörmətə layiqdir, çünki özünü islah etmək daha çətin və daha əhəmiyyətlidir

Əmirəl-möminin (ə)-ın elə sözləri var ki, qızıl suyu ilə yazılsa belə, yenə də azdır. Dil, danışıq və sözdə haqq ədalətin dairəsi olduqca genişdir. Söz mərhələsinə gəldikdə isə, bütün danışıqlar haqq və həqiqət əsasında olur, amma əməl sahəsində haqq mütləq şəkildə unudulur. İnsan asanlıqla haqqa əsaslanıb danışdığı sözlərə əməl etmək .istədikdə, bu işin nə qədər çətin olduğunu başa düşər

Möminlərə müjdə ver ki, əgər tövbə və ibadət etdikdən sonra əmr be məruf və nəhy əz münkərlə məşğul olsalar, daha artıq müvəffəq olacaqlar. Əgər bir adam əmr be məruf və nəhy əz münkəri tərk etsə və qalan vacibatın hamısını yerinə yetirsə, onda onun bu əməllərinin faydası yoxdur və ondan

uzaqlaşmaq lazımdır, hətta o adam özü tövbə etmədən başqalarını tövbəyə dəvət .etsə belə, onu tərk etmək lazımdır

:Əmirəl-möminin Əli (ə) buyurur

Allah, əmr be məruf etdiyi işin əksinə əməl edən adamlara lənət etsin. Allah, özləri“ .günaha alışdıqları zaman başqalarını nəhy əz münkər edənlərə lənət eləsin

**:Ariflərin nəzərincə zahidin dörd müxtəlif yolu vardır**

”Seyrun minəl xəlqi iləl həqq“.۱

;Yəni: Xalq və təbiətdən Allaha doğru yönəlmək

”Seyrun bil həqqi fil həqq“.۲

;Yəni: Allahda seyr etmək, yəni ilahi mərifət qazanmaq

”Seyrun minəl həqqi iləl xəlq“.۳

;Yəni: Allahdan bəndələrə doğru seyr etmək, camaatı tərbiyələndirmək üçün gəlmək

”Seyrun bil həqqi fil xəlq“.۴

;Yəni: Həqiqətdə xalq arasında seyr etmək

Burada demək istəyirlər ki, özü tövbə edən şəxs, əmr be məruf və nəhy əz münkər .etməyə layiqdir

Məlumdur ki, imam Hüseyn əleyhissəlamın hərəkatı öz yüksək qiymətini əmr be məruf .və nəhy əz münkərdən almışdır

səh:۴۹

İndi bilmək lazımdır ki, görəsən əmr be məruf nə qədər əhəmiyyətli bir məsələdir ki, Hüseyn ibni Əli (ə) kimi bir şəxsiyyət öz canını bu yolda qurban verib şəhid oldu? Və ümumiyyətlə bilmək lazımdır ki, belə bir insanın bu yolda qurban getməsi necə bir işdir? Bəli! əmr be məruf və nəhy əz münkər məsələsi, islamın əbədi varlığının birinci !zəmanətçisidir çünki bu olmazsa, islam da olmaz

Sizin bir eviniz, avtomobiliniz, fabrikiniz olsa və onlara baş çəkməzsinizsə və ya bacarıqlı bir ixtisasçı mühəndisi vəzifəyə götürməzsinizsə, onda vəziyyətin qarışdığını görəcəksiniz və artıq bundan sonra işi davam etdirmək mümkün olmayacaqdır. Cəmiyyət də belədir, bəlkə bundan da yüz dərəcə üstündür! Görəsən həkimə ehtiyacı ?olmayan bir insan tapılarmı

İnsan ya özü-öz vücudunun həkimi olmalıdır, ya da öz sağlamlığını qorumaq üçün göz, qulaq, burun və əsəb xəstəlikləri mütəxəssislərinə müraciət etməlidir. Çünki insanın bədən üzvləri müxtəlif ixtisasçı həkimlərə möhtacdır. Bununla belə, demək olarmı ki, cəmiyyətin nəzarət və idarəyə ehtiyacı yoxdur? Belə bir şey mümkün ola bilərmi? Heç vaxt! Ona görə ki, Hüseyn ibni Əli əleyhissəlamın əmr be məruf və nəhy əz münkər yolunda, yəni islamın

əbədi həyatının zəmanətçisi olan ən mühüm üsul yolunda şəhid oldu. Yəni, əgər bu qanun (əmr be məruf və nəhy əz münkər) olmasaydı, hər yeri təzyiq, iğtişaş və ayrılıq bürüyəcəkdi. Demək bu məsələ böyük bir əhəmiyyətə malik olduğu üçün imam .Hüseyn (ə) bu yolda şəhid oldu

Qurani-məcid aşkar şəkildə keçmiş cəmiyyətlərin dağılıb məhv olma səbəbini, onların arasında əmr be məruf və nəhy əz münkər kimi islahedici bir qanunun olmamasında .görmüşdür

## Əmr be məruf və nəhy əz münkərin şərtləri

Əmr be məruf və nəhy əz münkərə başlamazdan əvvəl, onun necəliyini və şərtlərini .öyrənməliyik

?Məruf və münkər nə deməkdir.۱

İslam dinində əmr be məruf və nəhy əz münkər məsələsi ancaq müamilə, ibadət, ailə .mühiti və davranışa həsr olunmur

Həmin səbəbə əsasən, burada məruf sözü ümumi mənada işlənmişdir. Çirkin və pis işlərin xilafına olan hər hansı bir yaxşı əmələ “məruf” deyirik. Əmr be məruf yaxşılığa dəvət etmək, nəhy əz münkər isə

?pisliklərdən çəkindirmək mənasındadır. Lakin bu əmrdən məqsəd nədir

Görəsən əmr be məruf və nəhy əz münkər təkcə söz mərhələsindədir, yəni bu işi təkcə dil ilə icra etməliyik? əlbəttə belə deyildir. Peyğəmbər, Əmirəl-möminin, bütün imamlar və din alimlərinə "Əmr be məruf və nəhy əz münkər yalnız sözlə məhdudlaşır?" deyə müraciət edilsə, onlar "xeyr, bu məsələ təkcə söz və dillə deyil, əməldə də olmalıdır, müsəlman bütün varlığı ilə əmr be məruf və nəhy əz münkər .etməlidir" buyurarlar

Əmirəl-möminin (ə) Quranın, yer üzünün bəzi dairələrini ölü və meyit adlandırmasının :mənasını, yəni dirilərin içində ölü kimdir?" deyə soruşanların cavabında buyurdu

Camaat müxtəlif siniflərə bölünürlər: Bəziləri pis işlərlə rastlaşdıqda ürəkdən" .mütəəssir olub dilə gələr, tənqid edər və yol göstərərlər

Onlar bu mərhələ ilə qane olmayaraq hər yolla olursa-olsun, istər mehribanlıqla, istərsə də kobudluqla və döyməklə əməli şəkildə əmr be məruf və nəhy əz münkər edərlər. Bunlar həqiqətən diridirlər. Bəziləri isə işləri müşahidə edən kimi haray-həşir .qoparır, öyüd-nəsihət verir və özlərinə də Allah tərəfindən bağışlanmaq istəyirlər

.Lakin bu adamlar əməl mərhələsinə gəldikdə geri çəkilirlər

.Belə adamlarda həyat və yaşayış üçün zəruri olan üç xüsusiyyətdən ikisi vardır

Üçüncü sinifə mənsub olan insanlar da pis işləri görərkən ürəkləri yanar və lakin onlar yalnız narahat olarlar. Məsələn, Novruz bayramı Məhərrəm ayına təsadüf edərkən, xalqın imam Hüseyn (ə)-ın hörmətini saxlamadığını görəndə narahat olub öz-özlərinə :deyirlər

Əyləncə vaxtı çoxdur, bu günlər İmam (ə)-ın əzadarlığının son günləridir. Biz imam“ Hüseyn (ə) məktəbindən faydalanmışıq, faydalanacağıq da, bu ölkə imam Hüseyn (ə)-ın ölkəsidir. Bizim xalq Əhli-beyt ardıcıllarıdır, Hüseyn ibni Əli bu ölkənin şüarıdır. Matəm günləri qeyri-şəri əyləncə yerlərinə getmək Hüseyn ibni Əli (ə)-a qarşı hörmətsizlikdir,” deyərlər. Amma yoldaşlarına: “Qardaş, İmam (ə)-ın hörmətini saxla, biz indiyə kimi İmam (ə)-ın hörmətini saxlamışıq və Hüseyn (ə) da bizi qoruyub .saxlamışdır və...” deməyə hazır olmazlar

İqbal Lahuri demişkən: “Müsəlmanlar heç vaxt islamı saxlamamışlar, əksinə olaraq ”.həmişə islam müsəlmanları saxlamışdır

ölkəni böyük bir təhlükə bürüyən zaman müsəlmanlar əli ibni əbi Talib və Nəhcül-bəlağənin sorağına gələr və Hüseyn ibni Əli (ə)-ı yada salarlar. Quran bizim barəmizdə :buyurur

Müşriklər gəmiyə mindikləri zaman (dəryada batacaqlarından qorxub) dində ixlas“ sahibi olan möminlər kimi yalnız Allaha dua edərlər. Allah onları sağ-salamat quruya ”.çıxaran kimi, yenə də ona şərik qoşarlar

Əmr be məruf və nəhy əz münkərin birinci mərhələsi uşaqlarınıza yaxşı adlar seçməyinizdir. Qeyri-islami adların cəmiyyətdə yayılmasının qarşısını alın, çünki bu işin özü də bir növ nəhy əz münkərdir. Uşaqlarınızın, məktəbələrinizin, xəstəxanalarınızın və şirkətlərinizin adını islami etməyə çalışın. Ərəb dili bir tayfa dili deyil, əslində ümumislam dilidir. Quran olmasaydı dünyada belə bir dil tapılmazdı. Ərəb dilinə qarşı mübarizə aparanlar, Quranı aradan aparmaq istəyirlər. Yaşamaq istəyən hər hansı bir millət öz dilini qorumalıdır. Dili ölmüş bir cəmiyyətin, sanki özü də ölmüşdür. Demək lazımdır ki, ərəb dili ilə mübarizə edənlər, islamla mübarizə edirlər. Allaha and olsun ki, biz ərəb dili qarşısında ağır məsuliyyət daşıyırıq, biz bu islam dilini qoruyub saxlamalıyıq. İslam

düşmənləri sizin və uşaqlarınızın bu dili öyrənməsinə maneə törədir. Bu dili mükəmməl surətdə öyrənin, onu öyrənməklə nəinki zərər görməyəcəksiniz, əksinə olaraq xeyri-mənfəət də tapacaqsınız.

Ərəb dili dünyanın diri dillərindən biridir. İngilis dili yüksək təbliğ olunaraq ailələrə nüfuz etmişdir. Bunun səbəbi nədir?

Ürəkləri bizim halımıza yanırmı? Yoxsa öz adət-ənənə və düşüncələrini bizə qəbul etdirmək istəyirlər? Onlar bu işlərlə bizim ruhumuzu əzmək istəyirlər!!!

Biz müsəlmanlar nə qədər qafil olmuşuq, yenə də qəflət yuxusundayıq. Sanki bütün dünya müsəlmanları əsrlər boyunca qəflət yuxusuna getmişlər və ayılmaq istəmirlər.

Nə qədər təəssüflü və cansıxıcı bir haldır ki, müxtəlif ölkələrdən olan iki müsəlman Məkkə və Mədinədə görüşərkən bir-birlərinin dilini başa düşmədikləri üçün ingiliscə danışmaq məcburiyyətində qalırlar. Bu düşmənin üç-dörd yüzillik hiyləsidir!!! Görəsən artıq ayılaraq bu fitnəkarlıqlara qarşı mübarizə aparmaq zamanı gəlib çatmamışdırmı? əlbəttə son zamanlarda

.müsəlmanlar arasında gözə çarpan dirçəliş və intibah çox sevindirici haldır

Ey müsəlmanlar!) Siz insanlar üçün zahirə çıxarılmış ən yaxşı ümmətsiniz. (Onlara)“) .yaxşı işləri görməyi əmr edir, pis əməlləri qadağan edir və Allaha inanırsınız

Bu böyük vəzifənin iki əsas şərti və iki önəmli təməli vardır. Onların biri agahlıq və bəsirətdir, çünki biz mərufun nə olduğunu bilməliyik. İnsan əmr be məruf və nəhy əz münkər etmək üçün sosiologiya və psixologiya kimi elmlərə yiyələnməli və eləcə də ...lazımi məharətə malik olmalıdır

Hər bir müsəlman münkər və mərufu bir-birindən ayırd etməli, onun nə olduğunu .bilməli və münkərin haradan vücuda gəldiyini başa düşməlidir

Buna görə də din rəhbərlərinin fikrincə, cahil və nadan adamların əmr be məruf və ?nəhy əz münkər etməkləri əsla yaxşı deyildir

?Görəsən bunun səbəbi nədir

Cahil əmr be məruf və nəhy əz münkər edərsə vəziyyəti sahmanlaşdırmaq yerinə, gərginləşdirər. Təəssüflər olsun ki, bu sahədə çoxlu səhlənkarlıqlara yol verilmişdir. Hər halda bu vəizfə bizim boynumuzdan götürülmür. Biz “cahil

olduğumuza görə bu sahədə heç bir məsuliyyət daşımırıq" deyə, iddia edə bilmərik. :Quran bu barədə belə buyurmuşdur

Lakin Allah olacaq işi (möminlərin qələbəsini, kafirlərin məğlubiyyətini) yerinə" yetirmək üçün belə etdi ki, həlak olan aşkar bir möcüzə ilə (dəlillə) həlak olsun, sağ ".qalan da aşkar bir möcüzə ilə sağ qalsın

Məsum imamlardan bəzi adamların cahilliyi barədə sual olunduqda, onlar: "Qiyamət günü əməlsiz bir alimi gətirib, nə üçün öz dediklərinə əməl etmədin?"-deyə, soruşarlar, onun heç bir cavabı olmaz. "O, artıq öz çirkin əməllərinin cəzasını çəkməlidir" .buyurarlar

.Başqa birisini də gətirib, ona: "Nə üçün əməl etmədin?"-deyə sual verərlər

.O "mən bilmirdim, başa düşmürdüm,"-deyər

Ona deyərlər: "Bilmirdim, başa düşmürdüm də cavabdır? Nə üçün gedib öyrənmirdin? Allah-təala bu ağıl və düşüncəni nə üçün yaratmışdır? Ona görə yaratmışdır ki, hər bir ".şeyi diqqətlə öyrənib başa düşəsən

:Əmirəl-möminin Əli (ə) buyurmuşdur

Bizim xalq cahil bir xalq oldu, gərək onlara bəla göndəriləydi, bəla göndərilməzdən əvvəl onlar

?onun nə olduğunu bilmir və öngörənlik etmirlər. Görəsən onlar nə üçün belədirlər

Onlar təkcə öz vəziyyətlərini deyil, hətta bir sosioloq kimi öz yaşadıqları əsrdən neçə il .qabaq baş vermiş hadisələri də başa düşməlidirlər

Biz artıq İbrahimə də doğru yolu nəsib etmişdik. Biz onun buna layiq olduğunu“ ”.bilirdik

İmam Hüseyn (ə)-ın hərəkatının qiymətini artıran səbəblərin biri də onun ziyalı, bəsirətli və zəkalı olmağı idi. O gün imam Hüseyn (ə) pərdə arxasında gördüklərini .başqaları güzgüdə də belə görə bilmirdilər

Biz indi oturub o günlərin vəziyyətini araşdırırıq, amma o zamanın camaatı imam Hüseyn (ə)-ı düşünə bilmirdilər, ancaq Hüseyn ibni Əli (ə) hər bir şeyi başa düşürdü. O zamanın ümumi əlaqələr vasitələri bu günkü kimi inkişaf etməmişdi. Şamda baş vermiş bir hadisənin xəbəri uzun müddətdən sonra Mədinə və ya Kufə camaatına çatırdı. Bəzən də əhali baş verən hadisələrdən ümumi şəkildə heç bir məlumat əldə edə bilmirdilər. Məsələn, Mədinə hadisəsini buna misal gətirmək olar. İmam beyətdən imtina edərək qiyama qalxdı, Mədinədən Məkkəyə gəldi və bir sıra hadislərdən sonra şəhid oldu. Bu mühüm hadisədən sonra əhali gözlərini

ovuşduraraq dedilər: "Qəribədir, Hüseyn əleyhissəlam da şəhid oldu? Görəsən o, niyə şəhid oldu? Xilafət mərkəzi olan Şama gedib məsələnin nə olduğunu yaxından ".öyrənməliyik

Sonradan neçə nəfərlik bir heyət Şama gedib xəlifə ilə görüşdü, məsələni bütün təfərrüatı ilə öyrənib qayıtdı. Bu heyət üzvlərindən məsələnin nə olduğunu soruşduqda dedilər: "Soruşmayın! Biz Şamda olarkən göydən daş yağıb həlak olacağımızdan qorxurduq!! Biz elə şəxsin yanından gəlirik ki, aşkarda çaxır içir və itbazlıq edir. O, fisq-.fücur əhli və meymunbazdır, hətta öz məhrəmlərilə zina edir

İmam Hüseyn (ə) "belə getsə, islamla xudafizləşməli olacağıq" deyib ayağa qalxdıqdan və bu yolda şəhid olduqdan sonra onlar yuxudan ayılıb Şama gedirlər. Oradan qayıtdıqdan sonra "Hüseyn (ə)-ın sözü haqq imiş, o, uzaqgörənlik edibmiş"-deyə etiraf .etdilər

İmam Hüseyn (ə) bu mövzuların hamısını əvvəldən bilirdi və elə buna görə də buyurdu: "Bunlar məni öldürəcəklər. Amma bu gün sizə deyirəm, mənim şəhadətimdən sonra ".onların hökuməti davam etməyəcəkdir

Ali-əbu Süfyan hökmranlığı artıq devrildi və bu iş çox tez həyata keçirildi. Ali-Üməyyə də hakimiyyətdə davam edə bilmədi, Bəni-Abbas ortaya çıxıb xilafəti onların əlindən .aldı və ۵۰۰-il hökumət etdi

.Kərbəla hadisəsindən sonra artıq Bəni-Üməyyə hökumətinin təməlləri sarsılmışdı

O hökumətin öz içindən özünə düşmən tapılmışdı. Osman ibni Ziyad öz rəhmsiz və :daşürəkli qardaşı İbni Ziyadın yanına gəlib dedi

Təki Ziyadın bütün övladları yoxsul və bədbəxt olaydılar, amma bizim sülalənin“ ”.vasitəsilə belə cinayət törənməyəydi

Yezidin fahişə və əxlaqsız anası Mərcanə, oğlunun belə bir cinayət törətdiyini eşitdikdə :dedi

Oğlum! Sən bu işi gördüyün üçün artıq behişt ətrini hiss edə bilməyəcək və ondan heç“ .bir xeyir görə bilməyəcəksən

Qaniçən və cinayətkar Mərvani-Həkəmin qardaşı Yəhya ibni Həkəm, Yezidin məclisində bir müxalif kimi ayağa qalxıb fəryad edərək: “Sübhanəllah!” Süməyyə (Ziyadın anası) övladı möhtərəm olmalıdır, amma sən Peyğəmbər balalarını belə bir ”.vəziyyətdə məclisə gətirmisən

Yezidin həyat yoldaşı Hindin əhvalatı bu etirazların aydın nümunələrindəndir, o da bir müxalif kimi Yezidi tənqid atəşinə tutdu. Yezid çarəsiz qalıb imamın şəhadətindəki rolunu inkar edərək dedi: “Mən belə bir işə razılıq verməmişdim, Abdullah ibni Ziyad ”.özbaşınalıq edib bu cinayəti törətmişdir

İmam Hüseyn əleyhissəlamın şəhadətindən Yezid çox bədbəxtlik və zəlalətlə hökmranlıq edib cəhənnəmə vasil oldu. Ondan sonra onun özünə vəliəhd təyin etdiyi :oğlu Müaviyə ibni Yezid xəlifə oldu. O, bir neçə gün sonra mənbərə çıxıb dedi

Ay camaat! Mənim babam Müaviyə Əli (ə)-a və atam Yezid isə Hüseyn ibni Əli (ə)-a“ qarşı mübarizə apardı. Bu müharibələrdə mənim atamla babam deyil, həzrət Əli (ə)-la imam Hüseyn (ə) haqq idilər. Mən atama qarşı nifrət bəsləyirəm, özümü isə xilafətə .layiq görmürəm

Çünki atam-babam etdikləri günahları bir daha təkrar etmək istəmirəm. Elə buna görə ”.də xilafətdən imtina etməyi məsləhət görürəm

.Bu etirafların hamısı, imam Hüseyn əleyhissəlamın qiyamı nəticəsində idi

## Əmr be məruf və nəhy əz münkərin dərəcələri

:Əmr be məruf və nəhy əz münkər bir neçə hissə və dərəcəyə bölünür

Pislikdən çəkindirən və yaxşılığa dəvət edən şəxs, ürəkdən və bütün varlığı ilə-۱ günahlara nifrət bəsləməlidir. Əmr be məruf və nəhy əz münkərin ən birinci məsələsi hicr və erazdır (günahdan çəkinmək və üz döndərmək). Siz birisinin pis və yaramaz işlərlə məşğul olduğunu gördükdə, onun özü ilə deyil, işləri ilə mübarizə etməlisiniz. Məsələn, ailəvi get-gəliniz olan və hədiyyə verib-aldığınız səmimi dostunuz aşkar bir günah etdiyini görən zaman, ona qabaqkı səmimiyyətlə yox, əksinə olaraq çox etinasız .və soyuqqanlıqla yanaşsanız, bu özü bir növ tənbeh olar

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, insan əmr be məruf və nəhy əz münkər haqqında məntiqlə addım atmalıdır, daha doğrusu onun əməli məntiqə uyğun olmalıdır. Əlbəttə, bu əks-əməl o vaxt təsir göstərə bilər ki, əlaqənizi kəsdiyiniz şəxs ruhi əzab-əziyyət çəkib öz işindən peşiman olsun. Əgər sizin təcrübəsiz gənc övladınız və ya dostunuz çirkin bir əmələ qurşansa, sizin əlaqənizin kəsilməsi onları günaha daha da rəğbətləndirər. Yəni onlar

tam sərbəstliklə öz günahlarını davam etdirərlər. Məsələn, get-gəl etdiyiniz bir ailənin fəsad və günaha qurşandığını gördükdə, öz abrınızdan qorxub əlaqənizi kəsirsiniz, çünki insan özündən asılı olmayaraq başqalarının təsirinə məruz qalır. Bəzən, günaha qurşanmış bir dostumuzla əlaqəmizi davam etdirmək onu günaha rəğbətləndirər və ondan uzaqlaşmağımız isə onu tənbeh edər, belə bir vəziyyətdə əlaqəmizi kəsməyimiz .mütləq vacibdir

:İkinci mərhələ

Alimlərin nəzərincə, dillə öyüd-nəsihət verərək xalqı yaxşı işlərə doğru istiqamətləndirmək nəhy əz münkərin ikinci mərhələsidir. Bir çox insanlar vardır ki, cahillikləri üzündən düşmənin təbliğatına uyub haqq yolundan azmışlar. Bu kimi şəxslər, fəsadın eyb və zərərlərini onlar üçün açıqlayıb izah edə bilən mehriban bir müəllim, tərbiyəçi və yolgöstəriciyə möhtacdırlar. Bununla belə əgər biz günahkar bir şəxsi moizə və məntiqlə doğru yola yönəldə bilsək, onunla əlaqə saxlamağımız .vacibdir

:Üçüncü mərhələ

Bu mərhələ əməl mərhələsidir. Bəzən günahkar şəxs elə bir mərhələdə olur ki, nə üz döndərib uzaqlaşmaq təsir göstərir, nə də öyüd-nəsihət və məntiq. Belə bir vəziyyətdə, əməlşən günahkar

?şəxsin qarşısını almalıyıq. Görəsən əməldən məqsəd nədir

Bəzi vaxtlar tənbeh etməyimizin lazım olduğuna baxmayaraq, əməldən məqsəd .hədələmək, döymək və yaralamaq deyildir

İslam həddi-hüdud dinidir, islam nəzərincə bəzi vaxtlar günahkar şəxsə ancaq tənbeh təsir göstərə bilər. Əlbəttə insan belə zənn etməməlidir ki, bütün yerdə düşmənçilik və .kobudluq lazımdır

:Həzrət Əli (ə) Peyğəmbərin davranışı barədə buyurur

O, müalicə edən bir həkim idi. Həkim, dava-dərmanla və lazım olduqda isə cərrahlıq“ ”.və dağ basmaqla yaraları sağaldar

:Şair demişkən

,Əzəldən yoğrulmuş sevinclə kədər

.Lazım gəlsə cərrah, əməl də edər

.Əmr be mərufun mərhələləri də nəhy əz münkərin mərhələləri kimidir

Əmr be məruf ya moizə və öyüd-nəsihət verməklə və yaxud da əməllə icra .olunmalıdır

Əməl mərhələsində təkcə sözlə kifayətlənmək olmaz. Bizim ictimaiyyətin böyük eyiblərindən biri

də, sözə həddən artıq əhəmiyyət verməməyimizdir. Söz öz yerində yüksək əhəmiyyətə malikdir, həqiqəti danışıb, yazıb və izah etməyincə heç bir iş görmək olmaz. Bəziləri isə hər bir şeyi ancaq sözlə həyata keçirmək istəyirlər. Bizcə bu səhvdir. .Söz lazımi şərt olsa da kifayətedici deyil, əməl də gərəkdir

Əmr be məruf və nəhy əz münkər iki hissəyə bölünmüşdür: Müstəqim və qeyri-müstəqim. Bəzi vaxtlar siz əmr be məruf və nəhy əz münkər etmək üçün müstəqim surətdə müdaxilə edirsiniz, daha doğrusu ayağa qalxıb "filan işi yerinə yetirməyinizi xahiş edirəm" deyirsiniz. Amma bəzən də qeyri-müstəqim yolla onu başa salırsınız. Məsələn, bir şəxsin filan əməlini tərifləməklə ona bu işin yaxşı olduğunu bildirmək .istəyirsiniz. Bu üslubun təsir dairəsi olduqca genişdir

:Bu məsələni aydınlaşdırmaq üçün bir rəvayət nəql edirik

İmam Həsən və imam Hüseyn əleyhiməssəlam uşaq ikən qoca bir kişinin səhv .dəstəmaz aldığını görürlər

İslam adət-ənənəsi və psixologiyasından agah olan bu iki imam, ona dəstəmazının düz olmadığını bildirmək istəyirlər. Digər dərəfdən qocanın

könlünə toxunmaq istəmirdilər. Çünki o kişi acıqlanıb "xeyr! Mənim dəstəmazım .düzdür"-deyə bilərdi

Onlar qabağa gedib dedilər: "Biz hər ikimiz sənin hüzurunda dəstəmaz alırıq. Sən diqqətlə bax və kimin dəstəmazının yaxşı olduğunu de!" Qoca kişi: "Yaxşı, dəstəmaz ".alın, mən sizin aranızda münsiflik edərəm

İmam Həsən (ə) və imam Hüseyn (ə) hər ikisi düzgün və kamil bir dəstəmaz aldıqdan .sonra o, öz dəstəmazının batil olduğunu başa düşdü

Qoca dönüb bu iki imama dedi: "Sizin hər ikinizin dəstəmazı düzdür, mənim öz ".dəstəmazım batil imiş

Əgər onlar qəzəblə: "Qoca kişisən, heç utanıb xəcalət çəkmirsən! Hələ dəstəmaz almağı bacarmırsan?"-desəydilər, onda o kişidə namaza qarşı daimi bir nifrət hissi .oyana bilərdi

:Xətiblərin biri deyir

Məşhəddə dinsiz bir şəxs var idi. Mən onunla get-gəl edib çox danışıqdan sonra, yumşalıb həqiqi bir mömin oldu, tamamilə dəyişdi, yüksək və həssas vəzifə daşıdığına baxmayaraq həmişə namazını camaatla qılmağa başladı. Günorta və şam namazını Gövhərşad məscidində, mərhum Nəhavəndinin

arxasında qılırdı. Münasib bir fürsət əldə etdikdə camaat namazında iştirak edərkən paltarlarını soyunub çiyninə bir əba salardı... Bir müddətdən sonra onu daha görmədik, səfərə getdiyini təsəvvür etdik. Bir xeyli soraqlaşdıqdan sonra dostlar “o, buradadır, .özü gəlmir”–dedilər

Nəhayət məlum oldu ki, o həm camaat namazını, həm də bizi tərk etmişdir. Bu mömin kişinin birdəfəlik dindən üz döndərməsinin səbəbini öyrənmək məqsədi ilə tədqiqat .aparmağa başladıq

Bu macəra ilə maraqlanaraq nəhayət öyrəndik ki, həmin şəxs camaat namazında iştirak edib dördüncü, beşinci sıralarda dayanırmış. Bir gün pişnamazın arxasında və birinci sırada dayanmış mürtəce şəxslərdən biri namaz vaxtı ön sıradan durub sıraları :keçərək beşinci sıraya gəlib çatır və bu kişi ilə üzbəüz oturub deyir

?...Sizə bir sual vermək istəyirəm, siz müsəlmansınız yoxsa

:Bu kişi

?Bu sual nədir ki, məndən soruşursunuz

:Mürtəce kişi

Xahiş edirəm, buyurasınız ki, siz müsəlmansınız

?ya yox

:O, dedi

Sən nə demək istəyirsən, əlbəttə ki, mən müsəlmanam, əgər müsəlman olmasaydım .buraya gəlməzdim

:Mürtəce və özünü müqəddəsliyə vuran kişi

.Əgər müsəlmansansa, bəs niyə üzünü qırxıb bu kökə salmısan?-deyə soruşdu

:Söz buraya yetişdikdə o kişi

Bu məscid, bu camaat namazı, bu din və məzhəb özünüzün olsun, mən getdim-deyə .ayağa qalxıb yola düzəlir

Bu da üzdəniraq nəhy əz münkərin başqa nümunəsidir. Xalqı dindən qaçırtmaq və din ?düşmənlərinin sayını artırmaq üçün bundan da təsirli bir səbəb tapmaq olarmı

:Bir gün xarici bir jurnalda dindar bir qızın hekayəsini oxuyurdum

Şahzadələrin biri ona vurulmuşdu. O, çox şəhvətpərəst olduğuna görə, qızı tora .salmaq istəyirdi. Bu dindar, ismətli və nəcabətli qız heç cürə ona təslim olmurdu

Nəhayət şahzadə məyus olub qızdan əl çəkdi. Neçə gündən sonra bir nəfər qızın :tərəfindən ona xəbər gətirib dedi

”...O qız bir müddət səninlə xoş güzəran keçirməyə hazırdır və“

Şahzadə təəccüblənib bu barədə tədqiqat aparmaq qərarına gəlir, görəsən nə üçün !?belə bir nəcabətli və iffətli qız birdən-birə əyyaşlıq və xoşgüzəranlığa meyl salmışdır

Bir qədər maraqlandıqdan sonra məsələnin səbəbini öyrənir. O macəra bundan ibarət idi ki, bir keşiş bu qızın yüksək dini əhval-ruhiyyəyə malik olduğunu duyub, onun əqidəsini daha da artırmaq qərarına gəlir. Bir gün o, qızın yanına gedir və ona :müraciətlə

.Sənə bir hədiyyə gətirmişəm,-deyir

Onlar üzbəüz oturarkən ruhani keşiş töhfəni qızın qarşısında yerə qoyur və örtüyü onun üstündən çəkir. Qız qarşısında bir ölünün kəlləsini gördükdə diksinərək "bu .nədir?"-deyə soruşur

Keşiş: "Onu qəbristanlıqdan gətirmişəm, sən onun barəsində dərindən fikirləşsən, "...dünyanın nə qədər vəfasız olduğunu duyacaqsan

:Keşiş bu işi ilə qızın ürəyində dinə qarşı elə bir nifrət yaratdı ki, o

Dünyanın sonu belə olacaqsa, bəs nə üçün bu beşgünlük yaşayışı özümə haram" .edim?"-deyə, əyyaşlıq və pozğunluğa qurşanır

səh:۶۹

Bu da yanlış öyüd-nəsihətin başqa bir nümunəsi. Biz artıq bu kimi tövsiyə və .nəsihətlərin təsirinin mənfi olduğuna inanmalıyıq

:Bu mövzu ilə əlaqədar mənim özümün bir xatirəm vardır

..Qumda olarkən yenicə işə başlamış məşhur bir şirkətin maşını ilə səfərə çıxdım

Vəramin şəhərində sürücünün ürəyində mənə qarşı ikrah hissi oyandığını duydum, :əlbəttə biz əvvəldən bir-birimizi tanımırdıq. Az sonra ondan

?Maşını harada saxlayacaqsınız?-deyə soruşdum

Bilmək istəyirdim ki, maşın yol üstündəki yeməkxanalarda saxlayarkən namaz qılmağa vaxt olacaq ya yox. O, cavabımı elə bir tərzdə qaytardı ki, Məşhədə kimi bir kəlmə də olsun belə, danışmağa cəsarətim çatmadı. öz-özümə dedim, bu şəxs müsəlman deyil, yəhudidir. Simnan şəhərində maşın dayandı. Mən dəstəmaz alarkən gördüm ki, sürücü ayaqlarını yuyur, mən onun dəstəmaz alıb namaz qıldığını gördüm. Mən onun müsəlman olduğunu və namaz qıldığını yəqin etdim. Onun bizimlə rəftarı qabaqkı kimi idi. Məndən bir oturacaq arxada iki nəfər Türbətli tələbə əyləşmişdi. Sürücü onlara məhəbbət göstərirdi. Yuxulamasın deyə tələbələrin birini çağırıb öz .yanında oturtdu

Nəhayət bu müəmma mənim üçün həll oldu. O sürücü bütün bədbəxtliyinin səbəbini mollalarda görürdü. Bu kimi təsəvvürlər bir yalnış və yersiz əmr be məruf və nəhy əz .münkərin nəticəsində yarana bilər

Bu işlər, xalqı dindən uzaqlaşdıraraq, onları bədbəxt etmək, dinə və ruhaniyyətə qarşı düşmən yaratmaqdır. öz-özümə dedim, Allah atasına rəhmət eləsin, mollalarla düşmən olsa da, islamla düşmən deyil, namaz qılır, oruc tutur, imam Rza (ə)-ın ...ziyarətinə gedir və s

**Əmr be məruf və nəhy əz münkərin növləri–١**

Dediyimiz kimi, əmr be məruf və nəhy əz münkər iki hissəyə bölünür: Nəzəri və əməli. .Bunların hər birisi özü-özlüyündə müstəqim və qeyri-müstəqim hissəyə ayrılır

Siz qeyri-müstəqim yolla əmr be məruf və nəhy əz münkər etmək istəsəniz, ilk mərhələdə saleh, təqvalı, pəhrizkar və öz elminizə əməl edən müsəlman olmalısınız. Əməlin təsir dairəsi başqa amillərdən olduqca genişdir. Söz əməl qədər təsir göstərə bilməz. Xalqın filosoflara deyil, Peyğəmbər

.və övliyalara itaət etməsi bizim iddiamızı aydın şəkildə sübut edir

Çünki filosoflar cəmiyyətdə ancaq bir məktəb və ideologiya aşılayırlar. Otağın bir guşəsində oturaraq kitab yazıb cəmiyyətə təhvil verirlər. Amma peyğəmbərlər və övliyalar ideologiyaya əhəmiyyət verməklə yanaşı, tam qətiyyətlə öz dediklərinə əməl edirlər. Daha doğrusu, insan əvvəl əməl edib sonra danışarsa, sözünün təsiri neçə .dəfə artar

:Əli ibni Əbi Talib əleyhissəlam buyurur

Mən heç vaxt sizi özüm əməl etmədiyim bir şeyə dəvət etməmişəm və habelə kimsəni özüm tərk etmədiyim bir əməldən çəkindirməmişəm. özüm tərk edən kimi sizi də .çəkindirərəm

Xalqı dilinizlə deyil, əməlinizlə dinə dəvət edin. İnsan əməl edərsə, cəmiyyətdə olduqca .artıq təsir bağışlaya bilər

Müasir və məşhur filosof Janpalın bu mövzu ilə əlaqədar yeni bir sözü vardır. Bu sözün :yeniliyi olmasa da, yeni bir ifadə ilə bəyan edilmişdir, o, deyir

Mən cəmiyyəti özüm gördüyüm işə dəvət edərəm," O, düz deyir, siz öz əməlinizdə" cəmiyyəti pisliyə, yaxud yaxşılığa dəvət edərsiniz. Şübhəsiz ki, sizin əməliniz öz ictimaiyyətinizdə bir növ sədaqət

yaradacaqdır, bu inkar edilməz bir həqiqətdir. Əslində biz cəmiyyəti öz gördüyümüz işə dəvət edirik. İnsan, xalqı özü çəkinmədiyi bir əməldən uzaqlaşdırmaq istəsə, onun fəaliyyəti nəticəsiz qalar. Mən sizə desəm, siz mənim əməlimə deyil, sözümə baxın! Bu .iş mümkün olası deyil. Birinci dərəcədə əməl və sonra isə söz öz təsirini göstərir

Hər bir islahatçı şəxs birinci dərəcədə özü saleh olmalıdır. özü sıravi əskərlərlə bərabər irəliləyən sərkərdə ilə, arxada dayanıb yalnız əmr edən sərkərdənin fərqi çoxdur. .Peyğəmbər və övliya həmişə: “Biz getdik siz də ardımızca gəlin!”-deyə əmr edərmişlər

Rəsuli-əkrəm (s) öz buyurduqlarına əməl etməsəydi islam ordusu bu qədər müvəffəqiyyət əldə edə bilməzdi. Xalqa: «Gecə namazı qılın!»-deyə əmr etsə də, özü hamıdan çox ibadət edərdi. İnfaq və fədakarlıqda da belə idi. O, özü birinci fədakar idi. Yəni əvvəl özü başlayar, sonra başqalarına əmr edərdi. O, «Cihadun fi səbilillah» deyə əmr etdikdə, özü və qohum-əqrəbası cəbhənin ön sırasında dayanırdılar. Təbiidir ki, Peyğəmbərin bu işi başqalarını da rəğbətləndirirdi. Onlar, Peyğəmbərin öz istəklilərini ölümə yolladığını və özünün hamıdan əvvəl silahlanıb düşmənin üzərinə

hücum etdiyini və bu yolda ziyan görüb dişinin sınmasını müşahidə etdikdə, artıq onun .həqiqət olduğuna inanırdılar

Peyğəmbərin (s) Həmzeyi Seyyidüş-şühəda və əli əleyhissəlamdan istəkli adamı var idimi? O, Bədr davasında hamıdan əvvəl bu iki nəfəri meydana göndərdi. Həzrət Əli (ə) Peyğəmbərin əmioğlusu və kürəkəni idi, o, Peyğəmbərin oğlu kimi idi. Çünki, Əli (ə) .Peyğəmbərin evində böyüyüb, boya-başa çatmışdı

Əvvəlcə istəkli əmisi Həmzə və əmioğlusu əbiübəydə ibni Harisi müharibə meydanına .göndərdi

Hüseyn ibni Əli əleyhissəlamın əməli çox idi, yoxsa xütbəsi? əməllərinin miqdarı xütbələri ilə müqayisədə qat-qat çox idi. Əməl olan yerdə sözə ehtiyac duyulmur. O, öz :xütbəsində fəryad edərək buyurdu

Öz qanını bizim yolumuzda axıdıb, şəhadət zirvəsinə yüksəlmək istəyənlər bizimlə» gələ bilərlər, başqa məqsədləri olanlar qayıtsınlar. Canından keçməyənlər bizimlə gəlməsinlər. Bizim qafiləmiz candan keçənlərin qafiləsidir.» Görürsünüz ki, imam Hüseyn (ə)-ın ən istəkliləri candan keçənlərin qafiləsində idi. Hüseyn (ə) öz

əzizlərini Mədinədə qoyub gəlsəydi, kimsə etiraz edərdimi? əlbəttə yox! İmam əgər öz əzizlərini Kərbəla səhnəsinə gətirməsəydi, onun qiyamı bu qədər mənəvi dəyərə malik ola bilməzdi. Hüseyn əleyhissəlam Allah yolunda öz qanına boyanıb şəhid oldu. O, öz var-yoxunu tamamilə bu yolda fəda etdi. İmam Hüseyn (ə)-ın əzizləri buraya zorla deyil, əqidə və iman üzrə gəlmişdilər. İmam bu səfərdə zərrəcə olsa ürəyində qorxu hissi olanları gətirməmişdi. Həmin səbəbə əsasən İmam əleyhissəlam onunla gələnləri .yol uzunu iki-üç dəfə sınadı və imtahandan çıxmayanları qaytardı

:İmam Məkkə şəhərindən hərəkət edərkən

Canından keçməyə hazır olmayanlar qayıtsınlar"-deyə əmr etdi. Amma bəziləri elə" təsəvvür edirdilər ki, bəlkə də imam Kufəyə mənfəət dalınca gedir, onlar: "Biz, qafilədən geri qalmamalıyıq" deyə, yola düşdülər. Çöl ərəblərinin bir hissəsi imam Hüseyn əleyhissəlama qoşuldular. İmam (ə) yol uzunu belə bir xütbə oxudu: "Ey camaat! Bizim müvəffəq olub yüksək məqam və vəzifələr əldə edəcəyimizə ümid edənlər səhv edirlər." Bu xütbədən sonra çoxları qayıtdılar. İmam tez-tez ona qoşulan camaatı sınayırdı, Aşura

səh:۷۵

gecəsi isə sonuncu sınaq həyata keçirildi. O gecə imamın bütün səhabələri sınaqdan .çıxdı

Nasixüt-təvarixin müəllifi səhv edərək yazır ki, Aşura gecəsi imam Hüseyn əleyhissəlam xütbə oxuyub öz məqsədini bildirdikdə, bir dəstə o Həzrəti tərk edib qaçdılar. Tarix kitablarının heç birisi bu mətləbi təsdiq etmir. Aşura gecəsi imamın səhabələrindən heç birisi o Həzrəti tərk etmədi. O gecəyə kimi imamla qalanlar bütün .imtahanlardan çıxmışdılar

Əgər Aşura gecəsi imamın səhabələrindən bir nəfər də olsa belə düşmənə qoşulub özünü təhlükədən qurtarsaydı, bu İmamın məktəbinə böyük bir nöqsan hesab edilərdi. Əksinə olaraq o gecə düşmən ordusundan ayrılaraq imama qoşulan da oldu. Əgər Hüseyn ibni Əli əleyhissəlam nə kimi təhlükələrlə qarşılaşacaqlarını bildirməsəydi, ola bilərdi ki, Kərbəla hadisəsindən sonra camaatın yarısı qayıdıb imamın əleyhinə təbliğat .aparaydılar. Çünki heç vaxt cəbhədən qaçanlar-"mən qorxub qayıtdım"-deməz

.Əksinə hər kəs öz xeyrinə olan yalançı bir məntiq uydurub özünə bəraət qazandırardı

Hüseyn ibni Əli əleyhissəlam ordu başçılığına namizəd olan Hürr ibni Yəzid Riyahini özünə doğru

cəlb etdi. Qeyd etmək lazımdır ki, Hürr adi bir şəxs deyildi. Hamı bilir ki, düşmən ordusunda Ömər Səddən sonra ikinci böyük şəxsiyyət Hürri idi. O, zirək və şücaətli bir kişi idi. Hüseyn ibni Əli (ə) onu, özünə birinci qılınc çəkən şəxs olmasına baxmayaraq, əməli əmr be mərufla cəzb edib tövbə edənlərin cərgəsinə daxil etdi. Bu kişi, öz rəşadət və fədakarlığı ilə məşhur idi. O, min nəfər atlı ilə imamın qarşısını kəsməyə .tapşırıq almışdı

İmam əleyhissəlam onu kövrəltdi, ürəyinə həqiqət işığı saldı. O, ilk növbədə dünyapərəst bir adam idi, amma təbiətində olan paklıq onu imam Hüseynə doğru .yönəltdi

Amma, digər tərəfdən də o, hər bir insanın vücudunda olan fitrətə görə, öz-özünə "Ölsəm, bir daha arvad-uşağımı görməyəcəyəm, mal-dövlətimi itirəcəyəm, mən öldükdən sonra bəlkə də düşmən var-yoxumu müsadirə edib uşaqlarıma heç nə .verməyəcək və..."-deyirdi

Belə bir vəziyyətdə insan iki yolun ayrıcında çaşıb qalar. Bir nəfər Hürrün titrədiyini gördükdə, ona müraciətlə: "Nə üçün titrəyirsən"-dedi. O, elə təsəvvür edirdi ki, Hürr qorxusundan titrəyir. Hürr: Sən mənim nə kimi vicdan əzabı çəkdiyimi bilmirsən. Mən özümü Behiştlə Cəhənnəm arasında

sərgərdan görürəm, nəqd cəhənnəmi, yoxsa nisyə behişti seçmək üçün .tərəddüddəyəm-dedi

Hürr dərin iztirab keçirirdi, o, qəti qərara gələ bilməmişdi. Düşmən bilməsin deyə, özünü yavaşca kənara çəkib atını qamçılayaraq imam Hüseyn əleyhissəlamın xeymələrinə doğru getdi. O, imam Hüseyn əleyhissəlamın səhabələri onun həmlə edəcəyini təsəvvür etməsinlər deyə, təslim olmaq və aman istəmək nişanəsilə .qalxanını tərsinə tutdu

Onunla ilk rastlaşan imam Hüseyn əleyhissəlam idi. İmam xeymənin qapısında dayanmışdı. Hürr: "Əssəlamu ələykə ya əba əbdullah" –deyə salam verdi. Sonra İmama müraciətlə:- "Mən günahkaram, mən bədbəxtəm, mən sizin yolunuzu .bağlayan günahkaram..."-dedi

O, əlini Allah dərgahına uzadıb dedi: "İlahi! Mən sənin övliyalarını qorxutmuşam, məni "!bağışla

Hürr İmama müraciət edərək: "Mənim günahlarımı qanımdan başqa heç bir şey yuya "?bilməz. Xahiş edirəm buyurasınız ki, mənim tövbəm qəbul olar yoxsa yox

"!Həzrət buyurdu: "Əlbəttə ki, qəbul olar

Hürr sevinərək dedi: "Tövbəm qəbul olduğuna görə Allaha şükr edirəm, indi isə meydana gedib öz

".qanımı sizin yolunuzda axıtmaq üçün izn istəyirəm

İmam buyurdu: "Ey Hürr! Sən bizim qonağımızsan, atdan enib xeyməyə gəl ki, sənə qulluq edək!" Amma Hürr atdan enmədi, icazə alıb meydana getdi və əbədi səadətə .qovuşdu

.Burada görürük ki, əməli əmr be məruf təbliğ və qiyamın dəyərini yüz dəfə artırır

Əmr be məruf və nəhy əz münkər İmamın qiyamını dəyərləndirdiyi kimi, imam Hüseynin qiyamı da əmr be məruf və nəhy əz münkəri dəyərləndirir. Görəsən bu nə deməkdir? Məgər Hüseyn ibni Əli əleyhissəlam bir islami qanunun dəyərli, yaxud dəyərsiz olmasında təsir göstərə bilərmi?! Yox, heç də belə deyildir, biz demək istəmirik ki, islamda əmr be məruf və nəhy əz münkər qanunu müəyyən bir dəyərə .malik idi, imam Hüseyn (ə) gəlib bu əslin dəyərini daha da çoxaltdı

Bu iş imam və peyğəmbərin yox, ancaq Allahın işidir. Bu üsulları insanlar üçün göndərən Allah, onların dərəcə və dəyərini də təyin etmişdir. Hətta, peyğəmbər də bu .kimi üsulları dəyişdirməyə qadir deyildir

səh:٧٩

.Dini elmlərdə məqami isbat və məqami sübut adlı iki müxtəlif termin vardır

İzah: Məsələn, bir şəhərdə neçə nəfər ürək həkimi olsa, onların eyni səviyyəli və yaxud müxtəlif dərəcəli mütəxxəssis olmaları mümkündür. Xalq bunları bir-birindən necə ayırd etməlidir? Onları olduğu kimi tanımaq mümkündürmü? Bəzən camaat bu həkimləri bir-birindən ayırd edə bilərlər və bəzən də mümkündür ki, birinci dərəcəli həkimi ikinci dərəcəli kimi tanısınlar. Demək burada məqami-isbatla məqami-sübut .bir-birindən fərqlidir

Biz təsəvvür etdiyimiz «şey»-in mahiyyəti onun həqiqi mahiyyəti ilə fərqlənir. Həqiqət budur ki, imam Hüseyn (ə) əmr be məruf və nəhy əz münkərin dəyərini islamda yox, islam dünyasında artırdı. Çünki «şəyun fi nəfseh» məqamında bir şeyin dəyərini çoxaldıb-azaltmaq Hüseyn ibni Əli (ə), Peyğəmbəri-əkrəm (s) və əli ibni əbu Talibin ixtiyarında deyil. Allah özü hər bir əsası müəyyən qədər dəyərləndirmişdir. Görəsən islami cəmiyyət, islami dəyərləri məqami sübut və məqami «şeyun fi nəfseh»də təyin olunan kimi tanıyırmı? Xeyr! Çox vaxt bu məsələnin tam əksi olur, yəni cəmiyyətdə birinci dərəcədə əhəmiyyətə malik olan üsula əsla

diqqət yetirilmir və əvəzində mənasız bir şey həddindən artıq dəyərləndirilir. Əli (ə) buyurdu: «Məncə islam, xalq arasında tərs üzü geyilmiş bir kürk vəziyyətinə «.düşəcəkdir

Kürkün tərs üzü geyildiyi kimi, islamı da əksinə təbliğ edəcəklər. İnsan kürkün tərs .üzünü geysə nəinki qızışmaz, üstəlik gülünc bir görkəmə də düşər

Müsəlmanların nəzərincə əmr be məruf və nəhy əz münkərin dəyəri müxtəlifdir. Bu məsələni müsəlman alimlərinin nəzərincə izah edirik. Bu alimlər əmr be məruf və nəhy əz münkər qanununun mahiyyəti barəsində elmi mübahisələr aparmış və onun qiymətini müəyyənləşdirmişlər. Lakin qeyri-müstəqim mübahisələrdən də əmr be :məruf və nəhy əz münkərin dəyərini anlamaq olar. Rəsuli-əkrəm buyurdu

Əgər insan islamda bir-biri ilə zidd olan iki mühüm işlə rastlaşarsa, onların daha“ ”.əhəmiyyətlisinə əməl edib, başqasını tərk etməlidir

Məsələn: əgər siz qəsb olunmuş yerdə birisinin suya düşüb boğulmasını gördükdə nə etməlisiniz? İcazəsiz başqasının torpağına daxil olmaqla suda boğulanı xilas etmək ,olarmı? Birinci iş haram

ikincisi isə vacibdir. Nə etməli? Qəsb olunan yerə daxil olub boğulan şəxsi xilas etməli və ya öz yerimizdə dayanıb qəsbi yerə ayaq qoymamalı və bir insanın suda qərq olmasına laqeyd halda baxmalıyıqmı? Burada hər iki mövzuya hörmətlə yanaşmalıyıq: :İbni əsir bir hədisin haqqında belə deyir

Əgər bir məsələ xalqın xeyrinə və bir nəfərin zərərinə olsa, xalqın xeyrini bir nəfərin .zərərindən üstün tutmalıyıq

İbni əsirin dediyi söz, böyük məsləhətin kiçik məsləhətə üstün gəlməsinin bir .nümunəsidir və bu hədisi ancaq bir mövzuya həsr etmək olmaz

;özgənin malının hörmətini saxlamalıyıq-١

Nəfs və canın hörməti həmişə malın hörmətindən üstündür, demək malı cana fəda-٢ etməliyik, belə bir vəziyyətdə qəsbi yerə daxil olmağımız nəinki günah sayılmır, üstəlik .Allahın əmrini yerinə yetirdiyimizə görə savab da hesab edilir

Əmr be məruf və nəhy əz münkər barəsində yaranan sual budur ki, bu iki vəzifənin hədd-hüdudu hara kimidir? əmr be məruf və nəhy əz münkər etmək istəyən şəxs hara kimi irəliləməlidir? Heç bir təhlükə qarşısında olmadığımız halda

tənbəllik etməyərək ilahi vəzifəni yerinə yetirməliyik. İnsan əmr be məruf və nəhy əz münkər edərsə malına zərər dəyəcəyini, həyatını itirəcəyini, öz ailəsinin ölüb və ya əsir olacağını yəqin bilsə nə etməlidir? Belə bir vəziyyətdə: “Canımız, malımız, abrımız, heysiyyətimiz təhlükədədir”-deyə bu ilahi vəzifədən boyun qaçıra bilərikmi? İslam, möminin abır və canına son dərəcə əhəmiyyət verir, siz bədəninizi heç bir səbəb olmadan azacıq cızmağa belə haqlı deyilsiniz, qalmışdı ki, canınızı təhlükəyə salasınız. .Şübhə yoxdur ki, insan öz canını təhlükəyə salmamalıdır

**Əmr be məruf və nəhy əz münkərin növləri–۲**

:Quran buyurur

”.Öz əlinizlə özünüzü təhlükəyə atmayın“

Çoxlu borcunuz olsa, yaxud öz eşqinizdə müvəffəq olmasanız da özünüzü damdan :yerə atmağınız düzgün deyildir. Quran sui-qəsd barəsində açıq-aşkar buyurur

Qəsdən özünü və ya başqasını öldürən şəxsin cəzası cəhənnəmdir, o, həmişəlik“ ”.cəhənnəmdə qalmalıdır

Öz canlarının ixtiyar sahibi olduğunu təsəvvür edənlər yanılırlar. Əlinizdə olan mal təkcə sizin özünüzün deyildir, ilk mərhələdə cəmiyyətin, sonra isə sizindir. Siz ondan ,istifadə etməkdə azadsınız

amma israfdan çəkinməlisiniz. Siz deyə bilməzsiniz ki, öz malımdır, könlüm istədiyini edərəm, israf edib çölə tökərəm. Könlüm istəsə paltarımı cırar, meyvəni də xarab edib çölə tökərəm və... xeyr! İslam heç kəsə belə bir haqqı vermir. Mal, can, abır, hamısı .möhtərəmdir

Məgər ictimaiyyətdə özünüzün töhmətlənməyinizə və hörmətdən düşməyinizə sbəb ?olan bir iş görə bilərsinizmi

Əlbəttə bizim məqsədimiz bu mövzuların üzərində mübahisə aparmaq deyildir. Söz burasındadır ki, görəsən insan əmr be məruf və nəhy əz münkər uğrunda öz can, mal ?və varından keçə bilərmi

:Peyğəmbər (s) buyurmuşdur

Bir-birilə zidd olan iki dəyərli mövzu ilə rastlaşdıqda naçar olaraq kiçiyi böyüyə fəda“ ”.etməliyik

Bəzi islam alimlərinin nəzərincə insan özünə bir zərər yetişəcəyindən qorxmayınca əmr be məruf və nəhy əz münkər edə bilər, amma ciddi bir təhlükə ehtimal verildikdə .bu fikirdən daşınmalıdır

Bəziləri isə deyirlər ki, əmr be məruf və nəhy əz münkər bu mövzulardan daha mühümdür. Biz hər şeydən əvvəl əmr və nəhy etdiyimiz məsələlər

haqda düşünməli onların əhəmiyyətini öyrənməliyik. Məsələn, küçəni zibilləyən şəxsi bu işdən çəkindirdikdə nalayiq sözlər eşidəcəyimizi ehtimal etsək, öz fikrimizdən .daşınmalıyıq

Bəzən, əmr və nəhy etdiyimiz məsələnin əhəmiyyəti can, mal, abır və heysiyyətdən qat-qat çoxdur. Məsələn, Quranın təhlükəyə düşməsini müşahidə etdikdə, vaxtı itirmədən əmr be məruf və nəhy əz münkər etməliyik. Quran aşkar şəkildə buyurur: «.«Peyğəmbərlərin məqsədi bəşər ictimaiyyətində ədalət yaratmaqdır

:Quran yenə də buyurur

And olsun ki, biz peyğəmbərlərimizi açıq-aşkar dəlillərlə [möcüzələrlə] göndərdik. Biz“ onlarla birlikdə [Allahın hökmlərini bildirən səmavi] kitab və ədalət tərəzisi [şəriət] nazil ”.etdik ki, insanlar [bir-biri ilə] ədalətlə rəftar etsinlər

:Rəsuli-əkrəm buyurdu

Zülm və sitəm əsasında bərpa olunan ictimaiyyətlərin heç birisi artıq“ ”.yaşamayacaqdır

:İslam, müsəlmanların birliyinə olduqca əhəmiyyət verir. Allah-təala Quranda buyurur

Hamınız bir yerdə Allahın ipindən [dinindən] möhkəm yapışın və bir-birinizdən“ ”.ayrılmayın

Düşmən cürbəcür hiylə və planlarla müsəlmanların arasında təfriqə salmağa çalışır. Belə vəziyyətdə, canım, abrım təhlükədədir, ictimaiyyət bunu bəyənmir deyərək, əmr !!!?be məruf və nəhy əz münkərdən boyun qaçırmalıyıqmı

Yox, heç də belə deyildir, əmr be məruf və nəhy əz münkərin həddi-hüdudu yoxdur. İslamın hökmləri təhlükə ilə rastlaşdıqda, bütün varlığımız (can, mal, abır, heysiyyət və s...) bahasına qutaracağını yəqin bilsək də belə, tam rəşadətlə ayağa qalxıb əmr be məruf və nəhy əz münkər etməliyik. İmam Hüseyn (ə) sübut edir ki, əmr be məruf və nəhy əz münkəri yerinə yetirmək üçün öz can, mal, sərvət və əzizlərimizi əsirgəməməli və bu yolda bütün məlamətlərə dözməliyik. Görəsən dünyada Hüseyn ibni Əli (ə) kimi əmr be məruf və nəhy əz münkər məsələsinə əhəmiyyət verən bir şəxs ?tapılarmı

.İmam öz qiyamını başlayarkən kimsə onu təsdiq etmədi

Çünki, onlar elə təsəvvür edirdilər ki, İmam məqam üçün qiyam edir və bunun nəticəsi :yaxşı olmayacaqdır. İmam (ə) onların birinin cavabında buyurdu

«La yəxfa ələyyəl əmr»

Yəni, sən dediyini mən özüm də bilirəm. Hüseyn (ə)-ın nəzərincə, əmr be məruf və nəhy əz münkər o qədər əhəmiyyətlidir ki, onun yolunda candan keçmək də olar. Əmr be məruf və nəhy əz münkər imam Hüseyn (ə)-ın qiyamını, İmamın qiyamı da əmr be .məruf və nəhy əz münkəri dəyərləndirdi

Əmr be məruf və nəhy əz münkərin həddi-hüdudu yoxdur. Amma bəzi xəsarətlərlə rastlaşdıqda əmr və nəhy etməkdən çəkinməliyik. Mümkündür ki, insan bir tərəfdən islama xidmət etmək məqsədilə əmr be məruf və nəhy əz münkər etsin, amma eyni halda həmin işin nəticəsində xidmətindən neçə dəfə artıq islama xəsarət yetirsin. Belə .olarsa, insan əmr be məruf və nəhy əz münkər etməməlidir

Bir çox insanlar var ki, nəhy əz münkər etmələri heç nəticə vermir, üstəlik nəhy .etdikləri şəxsin könlündə islama qarşı nifrət hissi də oyadırlar

Hüseyn ibni Əli (ə) öz qiyamının səbəblərindən birinin əmr be məruf və nəhy əz .münkər olduğunu bəyan etmişdir

Müaviyənin zamanında İmamın davranışından onun mühüm bir qiyam üçün hazırlıq gördüyünü seçmək olardı. Bəzi rəvayətlərə əsasən, İmam, minada Peyğəmbərin ,səhabələrini bir yerə toplayar

danışar, həqiqəti onlara açıqlayar və ictimaiyyətin vəziyyətini əks etdirərmiş. O Həzrət buyurdu: "Bu vəzifə (əmr be məruf və nəhy əz münkər) sizin üzərinizə düşmüşdür." Bu .macəra "Töhəfül-üqul" adlı kitabda geniş surətdə nəql olunmuşdur

Hüseyn (ə), Müaviyənin ömrünün son günlərində ona göndərdiyi bir məktubda belə yazırdı: "Ey Müaviyə ibni əbi Süfyan, Allaha and olsun! Mən Allah dərgahında təqsirkar ".olduğumdan qorxduğuma görə sənə qarşı mübarizə aparmıram

İmam bu məktubla Müaviyəyə bildirmək istəyir ki, mənim sakit oturub dinməməyim, mübarizə fikrində olmamağım mənasında deyil, əksinə mən mübarizə üçün münasib .bir fürsət axtarıram

İmam Məkkdən çıxdığı gün Məhəmməd ibni Hənəfiyyəyə yazdığı vəsiyyətnamədə öz :qiyamının səbəbini belə bəyan etdi

Həqiqətən mən, şər yaratmaq, fitnə-fəsad törətmək, zülm və xoşgüzəranlıq üçün" deyil, cəddimin ümmətini islah etmək, əmr be məruf və nəhy əz münkər etmək üçün ".çıxmışam

İmam Hüseyn yol uzunu bir neçə dəfə əmr be məruf və nəhy əz münkər məsələsindən söhbət açmış, amma bir dəfə də olsun belə beyət, ya dəvət

sözünü dilinə gətirməmişdir. Maraqlıdır ki, İmam yol uzunu qorxunc və məyusedici xəbərlər

eşidərkən, əhval-ruhiyyəsi zəifləməmiş, üstəlik əvvəlkindən daha kəskin xütbələr oxumağa davam etmişdir. İmam əleyhissəlam Müslümün şəhadət xəbərini eşitdikdə məşhur bir xütbə oxumağa başladı:«İnnəd-dünya qəd təğəyyərət və tənəkkərət və ədbərə mərufəha vəstəmərrət hiza«

Sonra buyurdu: «Əla tərovnə ənnəl həqqə la yuməlu bihi və ənnəl batilə la yətənahi ənhu liyərğəbəl mominu fi liqaillahi məhqa«

Məgər görmürsünüz ki, haqqa əməl olunmur, ilahi qanunlar isə tapdalanır? Bir belə" fəsadın yayılmasını və kimsənin [günahkarları gördükləri işlərdən] çəkindirməməyini görmürsünüz? Belə bir vəziyyətdə möminlər, Allaha qovuşmalarını nəzərə alaraq öz ".canlarından keçməlidirlər

Burada görürük ki, imam Hüseyn (ə) bu işi ancaq özünə deyil, eləcə də bütün möminlərə borc bilmişdir. İndi isə əmr be məruf və nəhy əz münkər məsələsinin nə qədər əhəmiyyətli olduğunu başa düşürük. İmam yol uzunu bəyan etdiyi başqa bir :xütbədə o dövrün vəziyyətini belə açıqlayır

«İnni la ərəl movtə illa səadətən vəl həyatə məz-zaliminə illa bərma»

Ey camaat! Mən belə bir vəziyyətdə ölümü səadət və şəhadətdən başqa bir şey“ bilmirəm. Mən bu vəziyyətdə ölümü haqq yolunda şəhid olmaq, sitəmkar və zalımlarla yaşamağı alçaqlıq bilirəm. Mən sitəmkarlarla saziş edən deyiləm.” İmam İraq sərhəddinə yetişərkən Hürr ibni Yəzidi Riyahın ordusu ilə rastlaşdı, o, min atlı ilə İmamı qarşısını kəsmək və o həzrəti Kufəyə aparmaq haqqında göstəriş almışdı. Demək olar ki, təqribən bütün ümidlər üzülmüşdü. İmam bu həssas mövqedə Rəsuli-əkrəmin əmr :be məruf və nəhy əz münkərə aid hədislərindən bir nümunəsini bəyan etdi

Ey camaat, hər kim Allahın qanunlarını dəyişdirən, halalı haram və haramı isə halal“ edən, beytül-malı öz könlü istədiyi kimi xərcləyən, ilahi hüdudları aşan və müsəlmanların qanını axıdan bir hökuməti görüb sakit otursa, Allah onları zalımların ”.məskəni olan Cəhənnəmə aparar

:Bu ilahi bir qanundur, həqiqətən, Allah bu işi görəcəkdir. Sonra o Həzrət buyurdu

Bu gün hökumət edənlər (Ali-üməyyə) də:-belədirlər. Onlar halalları haram və“ haramları isə halal etdilər, ilahi hədləri aşıb müsəlmanların

beytlü-malını öz şəxsi malları kimi xərclədilər. Bu vəziyyəti müşahidə edib heç bir söz ".deməndən sakit oturan şəxs onlardan (zalımlardan) sayılır

İmam öz sözünə davam edərək: "Mən, cəddimin əmrlərini yerinə yetirmək üçün ".başqalarından daha ləyaqətliyəm

Biz imam Hüseyn əleyhissəlamın xüsusiyyətləri ilə tanış olduq. Həqiqətən onun adı tarix boyu yaşamalıdır. Çünki o, ancaq özünü yox, cəmiyyətini düşünürdü. O, özünü bəşəri müqəddəsliklərə, tövhidə və ədalətə fəda etdi. Elə buna görədir ki, xalq hamılıqla onu sevir. Biz, mənəm-mənəmlikdən uzaq, sədaqətli və insani duyğulara ...malik olan bir şəxsi ürəkdən sevər və onu özümüzdən bilərik

İmam İraq sərhəddində Hürr ordusu ilə rastlaşdı. Onlar imam Hüseyn əleyhissəlamı Kufəyə aparıb həbsxanada öz nəzarətləri altında saxlamaq istəyirdilər. İmam (ə) :onlara boyun əyməyib bu işdən imtina edərək buyurdu

Heç vaxt gəlmərəm." Nəhayət onlar bir sıra danışıqlardan sonra belə qərara gəldilər" .ki, İmam nə Kufəyə, nə də Mədinəyə bəlkə Kərbəlaya getsin

Məhərrəm ayının ikinci günü İmam (ə) öz səhabələri və əhli-əyalı ilə birlikdə Kərbəlaya daxil olub xeymələri qurmağa başladı. Onların qarşısında

da düşmən ordusu çadır qurdu. Düşmən daimən get-gəl etməkdə idi. Məhərrəm ayının ۶-a qədər düşmənin sayı otuz minə çatdı. Ziyadın oğlu Səd öz oğlunu ordu .başçılığına təyin etmək qərarına gəlmişdi

Səd həzrət Əli (ə)-ın zamanında müxalifətə çəkildiyinə görə şiələrin nəzərində müsbət bir şəxsiyyət olmasa da, Peyğəmbər dövründəki müharibələrdə iştirak edib özünə şöhrət qazana bilmişdi. Həmin səbəbə əsasən, İbni Ziyad Ömər Sədi ordu başçılığına təyin etməklə, imam Hüseyn (ə)-ın əleyhinə apardığı müharibəni islamın ilk dövründəki .müharibələr kimi qələmə vermək istəyirdi

Sədin oğlu təqribən qanacaqlı bir insan idi və heç vəchlə bu məsuliyyəti qəbul etmək .istəmirdi. O, İbni Ziyada çox yalvarıb: “Məni bu işdən azad et!”-dedi

İbni Ziyad bir hökmə əsasən Rey, Tehran, Qurqan və Gilanatın hökumətini onun öhdəsinə qoymuşdu. İbni Ziyad Ömər Sədin zəif damarından istifadə edərək dedi: “Mənim hökumətimi özümə qaytar və könlün istədiyin yerə get.” Məqam və vəzifəyə uyan İbni Səd: “İzn ver, bir müddət fikirləşim,” dedi. O, gedib öz qohum-əqrəbaları və dost-tanışları ilə məsləhətləşdi. Onlar hamısı İbni

Sədi bu işdən çəkindirdilər. Lakin tamahkarlıq İbni Sədin gözünü tutmuşdu və onu fikirləşməyə qoymurdu. İbni Səd nə birinci işdən keçə bilir, nə də ikinci işlə razılaşa bilirdi. Elə buna görə də sülh bərqərar etməklə əlini imam Hüseyn (ə)-ın qanına batırmamağa olduqca cəhd göstərirdi. Təbərinin yazdığına əsasən, İbni Səd üç dəfə imam Hüseyn (ə)-la müzakirə etdi. Bu müzakirələrdə ancaq onlar ikisi iştirak etdiyinə görə, onun mətnindən İbni Sədin özü və imamlar nəql etdiyindən savayı düzgün bir xəbər əldə yoxdur. İbni Səd sülhə zəmin yaratmaq üçün bacardıqca cəhd göstərdi, bəzən də öz məqsədinə (sülhə) çatmaq üçün özündən yalanlar uydurub söyləyirdi. Ubeydullah ibni Ziyad ibni Sədin son məktubunu oxuyub fikrə daldı və öz-özünə: "Bəlkə də bu qəziyyəni sülh yolu ilə həll etmək oldu"-dedi. Amma necə deyərlər Ubeydullah ibni Ziyadın başına toplaşan, aşdan isti kasaların birisi (Şimr ibni Zilcovşən) ayağa qalxıb belə dedi: "Ey əmir, o, səhv edir, bu gün artıq Hüseyn (ə) sənin əlində giriftardır. O, bizim əlimizdən xilas olsa, vəziyyət daha da gərginləşər. Çünki burada onun tərəfdarları və atasının şiələri az deyildir. Üstəlik haradan məlumdur ki, dünyanın müxtəlif məntəqələrində yaşayan şiələr, bir yerə toplaşıb onu

himayə etməsinlər, onda sən daha Hüseyn (ə)-ın öhdəsindən gələ bilməzsən. :Ubeydullah yuxudan hövlənak ayılmışlar kimi

:Doğru deyirsən”-dedi“

O, qəzəbli bir ifadə ilə Ömər Sədə işarə edərək: “Az qala bu kişi bizi qafil etmişdi”-dedi və dərhal Ömər Sədə belə bir məktub yazıb göndərdi: “Bizə ağsaqqallıq edib öyüd-nəsihət yazmağın üçün səni oraya göndərməmişik, sən bir məmur olduğuna görə inzibatçı da olmalısan, ancaq mən əmr etdiklərimi yerinə yetirməlisən, istəmirsənsə bu vəzifədən kənara çəkil, biz onu başqasının öhdəsinə qoyarıq.” Ubeydullah bu məktubu Ömər Sədə çatdırmaq üçün Şimr ibni Zilcovşənə verdi. Bundan əlavə Şimrin özünə də məhrəmanə bir kağız yazdı ki: “Əgər Ömər Səd Hüseyn (ə)-la müharibə etməkdən çəkinərsə, onun boynunu vurub başını mənə göndər və bu hökmə əsasən ordunun .başçılığını öz öhdənə götür

Tasua günü günortaüstü Şimr ibni Zilcovşən Kərbəlaya çatıb məktubu Ömər Sədə verdi. Tasua Peyğəmbərin Əhli-beyti üçün çox ağır və qəmli bir gün idi. İmam Sadiq (ə) :buyurmuşdur

«İnnə tasua yovmun hosərə fihil huseyn»

Tasua günü imam Hüseyn (ə) çox çətin bir mühasirəyə düşmüşdü. Ömər Sədin qoşununa çoxlu kömək yetişirdi, amma Peyğəmbərin Əhli-beytinə heç kim yardım göstərmirdi. Allahın lənətinə gəlmiş Şimr ibni Zilcovşən Tasua günü günortaüstü Kərbəlaya yetişib İbni Ziyadın məktubunu ona təqdim etdi. Əgər Ömər Səd Hüseyn (ə)-la vuruşmağa razı olmasaydı, Şimr ibni Zilcovşən ibni Ziyaddan aldığı məhrəmanə hökmə əsasən onun boynunu vurub başını Ubeydullaha göndərəcək və özü ordunun başçılığını öhdəsinə götürəcəkdi. Lakin Şimrin gözlədiyinin əksinə olaraq Ömər Səd diqqətlə onu oxuyub dedi: "Mənim bu məktubum İbni Ziyada çox təsir göstərə :bilərmiş, sən mane olmusan..." Şimr dedi

?İndi bu sözlərin vaxtı deyil, son fikrin nədir, vuruşursan yoxsa istefa verirsən

.Vuruşuram-deyə Ömər Səd cavab verdi

:Şimr

:İndi mənim vəzifəm nədir?-dedi

:Ömər Səd

Sıravi əskərlərin başçılığını sənin öhdənə qoydum. Ubeydulah ibni Ziyad Ömər Sədə göndərdiyi məktubda belə yazmışdı: "Bu məktubu

alan kimi Hüseyn (ə)-ı bacardığın qədər təzyiqə məruz qoy! O, bu iki yoldan birini qəbul :etməlidir

O, qeydsiz-şərtsiz təslim olmalı və yaxud müharibə edib ölməlidir, daha üçüncü yol ”.yoxdur

Tasua günü axşamüstü İmam (ə) xeymələrin birisinin girəcəyində oturmuş halda :yuxuya getmişdi ki, Ömər Səd öz ordusuna müraciət edərək bağırıb dedi

«Ya xəyləllah irkəbi və bil cənnəti ibşiri»

Hoqqabazlıq və riyakarlığa baxın!! Ömər Səd öz ordusuna müraciətlə fəryad qoparıb :deyir

”!!!Atlarınıza minin ki, mən sizə Behişti bəşarət verirəm“

Otuz min nəfərdən ibarət olan ordu imam Hüseyn (ə)-ın xeyməsini dövrəyə almışdı. .İnsanların, atların və silahlıların səsi bir-birinə qarışıb səhraya yayılmışdı

Zeynəb (s.ə) xeymələrin birində ağır vəziyyətdə xəstə halında yatan imam Zeynəl-abidin (ə)-a qulluq göstərməklə məşğul idi. Zeynəb (s.ə) İmamın hüzuruna qayıdıb əlini onun çiyninə qoyaraq: “Qardaş! Buyur gör nə xəbərdir?” İmam (ə) başını qaldırıb :düşmən ordusunun fərqinə varmadan buyurdu

Mən röya aləmində ceddim Peyğəmbəri gördüm. O, mənə Behişt bəşarət verərək :buyurdu

.Hüseyncan, sən tezliklə Behiştə mənim yanıma gələcəksən

### Əmr be məruf və nəhy əz münkərin növləri–۳

Əldə olan bəzi sübutlara əsasən, Aşura gecəsi Zeynəb üçün ən ağır və çətin bir gecə idi. Kərbəla hadisəsində baş vermiş iki vaqiə Zeynəbi-Kübra (s.ə)-ya olduqca ağır təsir .etdi

:Birinci

(.Tasua günü axşamüstü baş verdi (yuxarıda bəyan etdik

:İkincisi

Aşura gecəsi. Bu gecə imam Hüseyn (ə) çox işlər gördü, o cümlədən səhabələri ilə .birlikdə Aşura günü üçün silah hazırlayırdılar

Əbuzərin azad etdiyi "Cun" adlı bir kişi silah mütəxəssisi idi. Onun xeyməsi imam Zeynəl-abidin (ə)-ın xeyməsi ilə yanaşı idi. İmam Hüseyn (ə) o kişiyə baş çəkmək üçün onun xeyməsinə gəlmişdi. İmamın tapşırığına görə, o gecə xeymələri bir-birinə yapışdırmışdılar. Zeynəb (s.ə) qardaşoğlusu imam Zeynəl-abidinin (ə)-a xidmətlə məşğul idi. Xeymələrin bir-birinə yapışdırılmasının səbəbi vardı... Bu hədisi imam :Zeynəl-abidin (ə) rəvayət edir

Bibim mənim qulluq göstərməklə məşğul idi. Atam Cuna baş çəkmək üçün silahlar saxlanılan xeyməyə gəlmişdi. O, bu şeri öz-özünə bir neçə dəfə təkrar etdi. Məzmunu :aşağıdakı kimidir

Ey dünya! Sən nə qədər alçaqsan! Dostları bizdən ayıran ruzigar belədir. Lakim hökm“ ruzigar əlində yox, Allahın əlindədir, biz də onun rizasına (razılığına) razıyıq, biz də Allah ”.istədiyini istəyirik

:İmam Zeynəb-abidin (ə) buyurur

”.Həm mən, həm də bibim atamın sözlərini eşidirdik. Araya mənalı bir sükut çökmüşdü“

Qəhr, boğazımı sıxırdı, amma bibimə görə ağlamağımın qarşısını aldım. Əmməmi də qəhr boğmuşdu, amma o, da mənə görə özünü saxlayıb ağlamadı, demək biz ikimiz də ağlamaq qarşısında müqavimət göstərdik... Nəhayət bibim Zeynəb özünü saxlaya :bilməyib nalə və fəryad edərək, hönkür-hönkür ağlayıb dedi

.Ey kaş dünya viran olaydı və Zeynəb belə bir vəziyyəti görməyəydi

Zeynəb ağlaya-ağlaya qardaşı imam Hüseyn (ə)-ın hüzuruna yetişdi. İmam (ə) :Zeynəbin başını dizinin üstünə alıb ona öyüh-nəsihət verərək dedi

Bacıcan muğayat ol, şeytan səni sarsıdıb səbrini əlindən almasın. Bu sözlər nədir ki,“ danışırsan? Nə üçün dünya viran olmalıdır? Şəhadət haqdır və biz onunla fəxr edirik. Cəddim Peyğəmbər, atam əli, anam Zəhra və qardaşım Həsən məndən yaxşı idilər. ”.Onlar getdilər, mən də gedəcəyəm. Sən məndən sonra bu qafiləyə başçılıq etməlisən

:Zeynəb (s.ə) ərz etdi

Qardaşcan, sənin buyurduqların haqdır, amma onlar hamısı birdəfəlik getməlidirlər.“ Əzizlərimin biri şəhid olduqda, könlümü o biriləri ilə xoş edirdim, səndən başqa mənim daha kimim var qardaş?! Bu danışıqdan sonra İmam (ə) qardaşı həzrət Abbas ibni Əlini :çağırıb dedi

Qardaşcan, dərhal bir neçə nəfərlə get gör nə xəbər var? Görəsən bizimlə vuruşmaq istəyirlər? Qürub zamanı döyüş vaxtı deyil, müharibə edənlər adətən sübh tezdən ?günəş qürub edənədək vuruşurlar, olmaya yenə bir xəbər var

Əbülfəzl (ə) Züheyr ibni Qeys və Həbib ibni Məzahirlə birlikdə düşmən ordusunun çadırlarına doğru yollanıb onların qarşısında dayandılar. Əbülfəzl-Abbas onlara :müraciət edərək buyurdu

Mən qardaşımdan sizə yenə bir xəbər gətirmişəm, təzə bir xəbər varmı? Ömər Səd :dedi

Bəli, əmir bir sərəncam vermişdir, sənin qardaşın təslim olmalı və ya müharibəyə :hazırlaşmalıdır. Həzrət əbülfəzl buyurdu

.Mən bir söz deyə bilmərəm, qardaşımın hüzuruna qayıdıb ondan cavab alaram

:İmam (ə) buyurdu

Biz təslim olan deyilik, son damla qanımıza qədər vuruşacağıq. Onlardan müharibəni sabaha qədər yubatmalarını tələb et. Bu ona görə deyil ki, mən bir gecə artıq yaşamağı da özümə qənimət bilirəm, daha yaşayışın mənim üçün heç dəyəri yoxdur. Mən ömrümün son gecəsini raz-niyaz, ibadət və Quran oxumaqla məşğul olmaq istəyirəm. Abbas ibni Əli gedib qardaşının sözlərini onlara yetirdi. Onlar əvvəl qəbul :etmək istəmirdilər. Lakin, öz aralarında ixtilaf yarandı. Onların birisi dedi

Siz çox həyasız bəşərsiz, çünki biz kafirlərlə vuruşduqda, onlar bizdən möhlət istədikdə ?biz qəbul edirik, nə üçün Peyğəmbər övladlarına belə bir möhləti verməməliyik

Burada Ömər Səd ordunun arasında təfriqə yaranmasın deyə, İbni Ziyadın fərmanının .xilafına əməl etdi

O gecə (Aşura gecəsi) imam Hüseyn (ə) üçün çox həyəcanlı və iztirablı bir gecə idi. O gecəni imam

Hüseyn (ə)-ın merac gecəsi adlandırmış və öz səhabələrinə və Əhli-beytinə bu :mövzuda bir xütbə oxumuşdu

Mən sizin kimi bir səhabə və Əhli-beyt görməmişəm. Hamınıza təşəkkür edir və öz minnətdarlığımı bildirirəm. Lakin bilməlisiniz ki, onlar ancaq məni istəyirlər və başqası ilə heç işləri yoxdur. Mənə beyət etmiş olsanız da hamınız azadsınız, getmək istəyənlərə heç maniə yoxdur. Sonra səhabələrinə tərəf dönüb buyurdu: “Siz hərəniz mənim Əhli-beytimin birinin əlini tutub özünüzlə apara bilərsiniz.” Amma Hüseyn (ə)-ın səhabələri imtahandan çıxmışdılar. Bəzi tarixi qeydlərə əsasən, onlar hamısı bir :ağızdan fəryad edərək

Bu sözlər nədir?! Biz səni tənha qoyub gedək? Sənin yolunda qurban vermək üçün bir“ candan artıq bir şeyimiz yoxdur, təki Allah bizə min can bağışlayaydı, hamısını sənə ”.qurban edərdik

Bəzi rəvayətçilər dediyinə görə ilk dəfə bu sözü dilə gətirən şəxs həzrət Abbas idi. Nəhayət hamı öz vəfadarlığını elan etdikdən sonra İmam (ə) sözünü təzələyib qeyb :aləmindəki həqiqətlərin başqa birini onlar üçün aydınlaşdıraraq buyurdu

Yəqin bilin ki, sabah hamımız şəhid olacağıq! Bizlərdən bir nəfər də belə diri“ ”.qalmayacaqdır

.Onlar:-“ Bizə şəhadət nəsib etdiyinə görə Allaha şükr edirik”-dedilər

On üç yaşlı Qasim ibni Həsən əmisindən “sabah hamı şəhid olacaq” müjdəsini eşidən kimi düşüncəyə dalıb öz-özünə dedi: “Bəlkə də bu söz kişilərə aiddir və biz uşaqların :halına şamil olmur.” Nigaran və iztirablı bir halda irəli gəlib əmisinə müraciətlə

.Sabah mən də şəhid olacağam?”-deyə soruşdu“

:İmam (ə) buyurdu

Qardaşoğlu, sən ölüm haqda necə düşünürsən?” Qasim dərhal: “Məncə, ölüm baldan“ da şirindir!!! Sabah bu nemət və ilahi mərhəmətdən məhrum olacağımdan qorxduğum üçün soruşuram.” İmam Hüseyn (ə) buyurdu: “Bəli, qardaşoğlu! Sabah sən ağır bir ”...dərdə mübtəla olduqdan sonra şəhid olacaqsan

İmam Hüseyn (ə) bu ağır dərdin nə olduğunu izah etməsə də, Aşura günü söylədikləri aşkara çıxdı. Qasim ١٣ yaşlı bir uşaq olduğuna görə onun əyninə uyğun bir zireh tapılmadı... O, uşaq olsa da tam şücaətlə meydana daxil oldu və bir xeyli vuruşduqdan sonra onun başına ağır bir zərbə

endirib atdan yerə saldılar. İmam Hüseyn (ə) çox nigaranlıqla xeymənin kənarında nəyi isə gözləyirmiş kimi atını cilovlayıb hazır dayanmışdı. Həmin dəmdə “ya əmi” ”!fəryadı hər yeri bürüdü: “Əmi can mən də getdim, əmican dadıma yet

Tarixçilər yazmışlar ki, Hüseyn (ə) özünü bir anda Qasimə yetirdi. Cənab Qasim yerə düşdükdən sonra düşmən ordusundan təxminən iki yüz nəfər onu dövrələyib başını kəsmək istəyirdilər. Onlar imam Hüseyn (ə)-ı görən kimi aslandan qorxmuş tülkü kimi qaçıb gözdən itdilər. Qasimin başını kəsmək qəsdi ilə atından enmiş şəxs öz atının ayaqları altında qanına boyanıb Cəhənnəmə vasil oldu. Qara toz buludu hər yeri bürümüşdü, göz-gözü görmürdü, dost və düşmən bu macəranın sonunu gözləyirdi. Qara toz buludu yer üzərinə çökdükdən sonra imam Hüseyn (ə) cənab Qasimin başını :dizi üstə alıb buyurdu

Qardaşoğlum! Mənim üçün sənin “Əmican” fəryadını eşidib başının üstündə hazır“ ”.olmağım, lakin heç bir iş görə bilməməyim necə də cansıxıcı və ağırdır

Vaxtilə Qum şəhərində mərhum hacı şeyx əbdülkərim Hairinin hüzurunda təşkil olunan matəm məclisində vaiz minbərə çıxıb bu rövzəni

oxuyarkən Ayətullah Hairi özünü döyüb huşdan getdi. Vaiz minbərdən endikdən sonra :Ayətullah Hairi

Xahiş edirəm mən olduğum məclisdə bu rövzəni oxumayasan. Çünki onu eştməyə :taqətim yoxdur. Ravi deyir

Qasimin başı imam Hüseynin (ə) dizləri üstündə olarkən, yaralarının ağrısından əzab“ çəkdiyinə görə vurnuxurdu. Nəhayət o, fəryad edərək əbədi olaraq dünyaya göz ...yumdu

Maraqlıdır ki, Qasim imam Hüseyn (ə)-dan meydana getmək üçün izn istəyərkən onlar .qolboyun olub, bihuş olmaq dərəcəsinə qədər ağladılar

Yarım saat ərzində səhnə tamamilə dəyişilmişdi, Hüseyn (ə) Qasimi qucaqlamışdı, lakin Qasimin qolları ixtiyarsız olaraq yanına düşmüşdü, çünki artıq o, əbədi olaraq .dünyaya göz yummuşdu

:Keçən bəhslərdən nəticə çıxaraq

ötən bəhslərdə dediyimiz kimi, islam nöqteyi nəzərincə əmr be məruf və nəhy əz-١ .münkər məsələsi müəyyən bir çərçivədə məhdudlaşmır

İslamın bütün müstbət cəhətlərinə əmr və mənfi cəhətlərində isə nəhy etməliyik. Qurani-kərim, fiqh, hədislər və islam tarixinə əsasən, əmr be məruf və

nəhy əz münkərdən məqsəd yüksək islami hədəflər uğrunda şəriətə uyğun hər hansı bir vsaitədən istifadə etməkdir. Daha doğrusu, əmr be məruf və nəhy əz münkər .məsələsinin həyata keçirilməsi ancaq söz mərhələsində məhdudlaşmır

Bundan əvvəl dediyimiz kimi imam Hüseyn (ə)-ın qiyamı müxtəlif amillər nəticəsində-۲ baş vermişsə də, onun ən birinci və ən mühüm səbəbi əmr be məruf və nəhy əz .münkər məsələsi olmuşdur

Bu qanun islam təlimatı əsaslarının biri sayılır ki, islamın müqəddəratı məhz həmin əsasdan asılıdır. Bu əsl aradan gedərsə, islam cəmiyyəti də dağılar. Görəsən bu əsl ?məsələ ilə əlaqədar olan üzərimizdəki vəzifəni layiqincə yerinə yetirə bilmişikmi

Təəssüf ki, yox, biz nəinki bu məsələ ilə islam dediyi kimi maraqlanmamışıq, üstəlik .ona əhəmiyyət verib lazımi qədər dərk etməmişik də

:Rəsuli-əkrəm buyurdu

Siz müsəlmanlar bir-birinizə məsulsunuz." Bu ağır vəzifəni yerinə yetirmək üçün" yüksək elm və agahlıq lazımdır. Bu ağır vəzifənin yerinə yetirilməsi üçün elm, qüdrət, imkan və agahlıq

lazımdır. Biz zatən bu qüdrətə malikik və artıq bu gün müsəlmanların sayı bir milyardı .ötmüşdür

Bir milyarddan artıq insan dünyada vahid bir qüdrət təşkil edə bilmirmi?! əgər müsəlmanlar mütəşəkkil olub islami dəyər və mənəviyyatı öz qarşılarına məqsəd qoyaraq belə bir cəmiyyət təşkil etsələr bütün dünya onlardan qorxar. Mümkün deyildir ki, Amerika və digər fövqəl-qüdrətlər bu kimi vahid cəmiyyətdən qorxub .çəkinməsinlər

Biz əmr be məruf və nəhy əz münkər haqqında olduqca səhlənkarlıq etmişik. Əmr be məruf və nəhy əz münkərlə əlaqədar nəşr etdiyimiz kitabların sayı başqa kitablarla müqayisədə çox azdır. Biz bəzən əhəmiyyətsiz məsələləri yüksək dərəcədə .qiymətləndirir və daha əhəmiyyətli məsələlərə laqeyid yanaşırıq

Demək olar ki, on dördüncü əsrin beş-altıncı yüz illiyi, biz müsəlmanların ən parlaq dövrü olmuşdur. Biz bu dövrdə islamdan ilham almış yüksək bir təməddünə (sivilizasiyaya) malikik. Bu isə öz növbəsində dünyanın ən mühüm sivilizasiyalardan biridir. Görəsən biz bu mövzu ilə əlaqədar üzərimizdə olan vəzifəni duymuşuqmu? öz keçmiş təməddünümüzü təbliğ etməyə nə qədər çalışmışıq. Ümumiyyətlə bizim gənclərimiz elə təsəvvür edirlər

ki, müsəlmanlar islamın ilk dövründən bu günə kimi onun bütün göstərişlərinə əməl ...etmişlər, ancaq əldə edilən son nəticə elə budur ki, var

.Biz hətta öz kitablarımızdan da xəbərdar deyilik

Əgər bizə - müsəlmanlar riyaziyyat elmələri sahəsində nə kimi nailiyyətlər əldə .etmişlər - deyə sual versələr, yəqin ki, "bilmirəm" deyərik

Bu gün bizim bir çox riyaziyyatçı alimlərimiz sübut etmişlər ki, Avropanın fəxr etdiyi bir .çox müasir nailiyyətlər islam xalqlarının təşəbbüsü ilə ixtira edilmişdir

.Habelə, incəsənət, memarlıq, elm, fəlsəfə, fizika və kimya sahəsində də belədir

Biz öz keçmişimizdən mütləq xəbərsiz qalan bir millətik, keçmişdə və hal-hazırda nə .olduğumuzu bilmirik

İmam Rza (ə)-ın muzeyinin bir hissəsi Qurana həsr edilmişdir. Orada ١١-ci əsrdən bəri mövcud olan müxtəlif gözəl əlyazma Quranlar vardır. Bu Quranların bəzisi incəsənət baxımından yüksək əhəmiyyətə malikdir. O muzeyin məsulunun dediyinə görə, ١١-il .bundan əvvəl Quranların birinin qiyməti beş milyon məbləğində müəyyənləşmişdir

Görəsən bu incəsənəti kim yaratmışdır? Bu rəssam və sənətkarların arasında bir çox azərbaycanlı, iranlı, türk, monqol, ərəb, hindistanlı və başqa milliyətlərə mənsub .olanları görmək olar. Hər halda onlar islam ruhu daşıyan müsəlman imişlər

Son iki-üç il ərzində əldə edilmiş Quranların bir çoxu savab üçün istifadəsiz qalmasın deyə xalqın istifadəsinə verilmiş, o yazıqlar da Quranın dəyərini başa düşmədiklərindən onları laqeyid şəxslərə tapşırmışlar. Həmin laqeyid şəxslər də, bu Quranlar köhnəldikdən sonra şəhərin kənarında basdırmışlar. Xoşbəxtlikdən bir nəfəri dəfn etmək üçün qəbir qazdıqda oradan sandıqlarda yerləşmiş bu Quranların min yüz cildini tapmışlar. Bu Quranların arasında incəsənət baxımından çox yüksək qiymətə malik olan Quranlar da varmış... Biz nə qədər öz mədəni irs və sivilizasiyamızdan ...xəbərsiz imişik

Buna görədir ki, deyirik bizim bu sahədəki qüsurlarımız olduqca çoxdur. Allaha and olsun, əgər qan ağlasaq yenə də azdır. Nə üçün əmr be məruf və nəhy əz münkər sahəsində bu qədər nöqsanlar etmişik?! əmr be məruf və nəhy əz münkər nə deməkdir? Yəni həmdərdlik, bağlılıq, həmkarlıq, həmrəylik, mərifət, tanışlıq, qüdrət və ...s

Bizim dinimiz öz ibadətgahlarında oturub ibadətlə məşğul olan zahidlər dini yox, əksinə ictimai bir dindir. Onlar bir ömür ibadətgahlarda ibadətlə məşğul olduqdan sonra artıq vahid bir cəmiyyət təşkil etmələrinin lazım olduğunu başa düşmüşlər. Onlar bir-birlərinin qayğısına qalırlar, amma ictimai yaşayış, həmkarlıq, vəhdət və bağlılıq dininə malik olan biz müsəlmanlar onlardan daha artıq təfriqə, tənhalıq və iztiraba doğru .yönəlmişik

**Əmr be məruf və nəhy əz münkərin növləri–۴**

Əmr be məruf və nəhy əz münkərə əmr edən şəxs bizim agah və uzaqgörən bir millət olmağımızı istəyir. Biz nəinki uzaqgörən deyilik, üstəlik öz vəziyyət və mövqeyimizi də :dərk etmirik. İmam Sadiq (ə) ۱۳۰۰ il bundan əvvəl buyurmuşdur

”.Zamanının vəziyyətini dərk edən şəxs öz işində yanılmaz“

Bu o deməkdir ki, öz zaman, mövqe və vəziyyətlərindən xəbərsiz olanların işi həmişə tərsinədir, yəni düşməni əzib rüsvay etmək yerinə özlərini təhqir edib əcnəbilərə güldürürlər. Bizim də əməl dəftərlərimiz belədir. özümüzə qiymət verib abırlı və etibarlı ?bir millət olmağımız üçün nə etməliyik

:Qurani-kərim bu sualın cavabında belə buyurmuşdur

səh:۱۰۹

”.Siz yaxşı işlərə əmr edib, pis işlərdən çəkindirsəniz, ümmətlərin ən yaxşısı olarsınız“

Bu pozğunluq və əxlaqsızlıq nə üçündür? Ona görədir ki, səni sarsıdıb gücsüz ...saxlasınlar

Biz Hüseyn ibni Əli (ə)-ın hərəkatından faydalanmalıyıq. Əli ibni əbi Talib və Hüseyn ibni Əli əleyhissəlamın maraqlandığı məsələlərə daha artıq əhəmiyyət verməliyik. Nə üçün biz onlar maraqlandıqları məsələlərlə maraqlanmırıq? Biz onların rəftar və davranışından dərs almalıyıq. öz mal-dövlətimizdən necə faydalanmağımızı və Allah .yolunda etdiyimiz infaqların nə kimi şəraitə malik olduğunu bilməliyik

Yersiz əmr be məruf və nəhy əz münkərin zərəri onun tərk edilməsindən olduqca .çoxdur

:Quran açıq-aşkar buyurur

Mallarını Allah yolunda sərf edənlərin halı yeddi sünbül verən bir toxuma bənzər ki, bu“ ”.sünbüllərin hər birində yüz ədəd dənə vardır

.Allah istədiyi şəxs üçün bunu qat-qat artırar

”!Allahın mərhəməti olduqca genişdir. O, hər şeyi biləndir

:Quran infaqın başqa bir nümunəsinə də işarə edir

Onların bu dünyada sərf etdikləri şey özünə zülm edən bir qövmün əkinlərini məhv“ .edən soyuq bir küləyə bənzər

”.Allah onlara zülm etməyib, lakin onlar öz-özlərinə zülm etdilər

Beləliklə, əgər biz Allah və Peyğəmbərin yanında üzü ağ olmaq və başqa ümmətlərin yanında fəxr etmək istəsək, əmr be məruf və nəhy əz münkər məsələsini .unutmamalıyıq

Sizin fikrinizcə, əgər Peyğəmbər diri olsaydı nə kimi məsələlər haqqında düşünərdi. Mən and içə bilərəm ki, Rəsuli-əkrəm öz mübarək məzarında Fələstin (Qarabağ. Red.) .məsələsindən narahat və nigarandır

.Fələstin məsələsi bir islami ölkə ilə yox, bir ümmətlə (islam ümməti ilə) əlaqədardır

Yəhudilər iddia edirlər ki, üç min il bundan əvvəl bu ölkədə hökumət etmişlər. Onların biri Süleyman və digəri isə Davuddur. Siz tarixi oxuyub görün ki, Fələstin iki min il bundan əvvəldən indiyə kimi nə

vaxt yəhudilərin olmuşdur. Yəhudilər nə vaxt Fələstin yerli əhalisinin əksəriyyətini təşkil etmişlər? Fələstin nə islamdan əvvəl və nə də islamdan sonra yəhudilərə .mənsub olmamışdır

Fələstin müsəlmanlar tərəfindən fəth olunan gün yəhudilərin deyil, xristianların ixtiyarında idi. Təsadüfən müsəlmanlarla xaçpərəstlər arasında bağlanan sülh müqaviləsinin bir maddəsi bundan ibarətdir ki, müsəlmanlar yəhudiləri Fələstin ölkəsinə buraxmasınlar. Bizim narahatlığımıza səbəb olan məsələlərin biri də budur ki, .bu əsri yalandan insan hüququ, azadlıq və insaniyyət əsri adlandırmışlar

Yəhudilər dünyanın müxtəlif ölkələrində, o cümlədən Rusiyada, Almaniyada, Polşada və sair yerlərdə müxtəlif işgəncə və sıxıntıya məruz qalırdılar. Yəhudi başçılarının bir dəstəsi bu fikrə düşdülər ki, nə üçün biz yəhudi millətinin taleyi belə olmalıdır? Hamımız .bir yerə toplaşıb vahid bir hökumət təşkil etməliyik

Birinci ümumdünya müharibəsində müttəfiq qoşunlar osmanlılarla vuruşdular... Mən osmanlıların çatışmaz cəhətlərini qəbul etməklə yanaşı onların islam dünyasına .nəzarətini və vahid bir hökumət olmalarını müsbət qiymətləndirirəm

İngilislər ərəblərə müttəfiqləri himayə etdikləri surətdə onlara istiqlaliyyət .verəcəklərinə dair söz vermişdilər

Osmanlı hökumətindən cana gəlmiş və müttəfiqlər tərəfindən təhrik olunmuş sadəlövh ərəblər ingilis hiyləsinə aldanaraq Osmanlı hökumətinə qarşı mübarizə ...aparmağa başladılar

Eyni halda ingilislər, yenicə təşkil olunmuş sionistlərlə bağladıqları əhd-peymanı !möhkəmləndirərək “Fələstin sizin olsun” dedilər

Bu məsələlərin ardınca millətlər təşkilatı belə bir qanun qəbul etdi ki, dünyanın bir çox millətləri, o cümlədən osmanlılar inkişaf etməmişlər, biz onlara başçı təyin edib ...vəziyyətlərini sahmanlaşdırmalıyıq

Onlar bu siyasətlə Osmanlı dövlətinin irsini bölmək istəyirdilər və nəhayət onlar öz məqsədlərinə nail ola bildilər. Osmanlı imperatorluğunu bölüşdürüb bir hissəsini İngiltərəyə və başqa bir hissəsini də Fransaya verdilər. Fələstin İngiltərənin ixtiyarına verilmiş hissədə idi. İngiltərə Fələstin ölkəsini yəhudilərə verdi. Dünyanın müxtəlif ölkələrində yaşyan yəhudilər və hətta İsrail tayfasına mənsub olmayanlar da gəlib orada məskunlaşdılar. Onların

müqəddəs kitabları məqsəd uğrunda hər bir rəhmsizliyə icazə vermişdi. Fələstində yerli əhali arasında yəhudilərin sayı ancaq ۵۰۰۰۰ nəfərə çatır. İndi bu bədbəxtlər çox fəlakətlə yaşayırlar. Amerika və Avropadan gəlmiş yəhudilər ingilislərin himayəsi ilə mülk almağa başlayıb, yerli yəhudiləri də oraya köçməyə vadar etdilər... Bir sıra qiyam edən ərəb ziyalılarını da tutub edam etdilər. Yerli müsəlman əhalisini silah gücü ilə öz doğma vətənlərindən qovub didərgin saldılar və onların əvəzinə avropalı yəhudilərin Fələstinə köçmələrinə zəmin yaratdılar. Bu gün üç milyon müsəlman öz ev-eşiklərindən didərgin düşüb, Fələstin çöllərində avara olmuşlar. Onların məqsədi ancaq bir kiçik hökumət təşkil etmək idimi? Xeyr, heç də belə deyil, onlar Nil çayı ilə Fərat çayı arsında yerləşən çox böyük bir ərazidə böyük bir İsrail yaratmaq istəyirlər.

:Əbdür-rəhman Fəramərzi demişkən

Mən tanıdığım İsrail sabah sizin şairlər yurdu qədim Şirazı Süleyman mülkü adlandıraraq, bura bizimdir-deyə iddia edəcəklər. Onların cavabında bu ancaq bir təşbihdir desən, onlar: “Nə üçün qədim zamanlardan buranı Süleyman mülkü ”!!!adlandırmışlar? Buna əsasən bura indi də Süleyman mülküdür

səh:۱۱۴

Məgər onlar: “İraq, Mədinə, Xeybər və başqa müqəddəs yerlər bizimdir”-deyə iddia ?etmirlər

Məgər vaxtilə Ruzvelt, Səudiyyə ərəbistanının şahına bu ölkənin müqəddəs yerlərini ?İsrailə satmaqlarını təklif etməmişdi

Allaha and olsun, biz bu məsələlər qarşısında məsuliyyət daşıyırıq. Bu hadisələrə görə Hüseyn ibni Əli və Rəsuli-əkrəmin ürəyi qana dönmüşdür. Görəsən əgər bu gün imam Hüseyn əleyhissəlam diri olsaydı, nə buyurardı? Şübhəsiz, o buyurardı ki, “Sizin şüarınız Fələstin olmalıdır. Muşediyan bu günkü Şimrdir. ۱۳۰۰ il bundan əvvəlki Şimr ölüb getdi, öz zamanının Şimrini tanı!” Vallah biz qafilik. Onlar bizə yalan demişlər ki, bu ancaq ərəblər və İsraillə əlaqədar olan dixili bir məsələdir. Əbdürrəhman Fəramərzi :demişkən

Əgər bu dini bir toqquşma deyilsə, bəs niyə dünyanın müxtəlif yerlərində yaşayan“ ”?yəhudilər İsrailə pul göndərirlər

Bir neçə il bundan əvvəl dünya yəhudiləri ۵۰۰ milyon dollar yığıb İsrailə göndərdilər. .İsrail də bu pullarla təyyarə alıb müsəlmanların başına od yağdırdı

Elə həmin öz İranımızda yaşayan yəhudilər bir il iki fantomun (bir növ təyyarə) pulunu (۳۶ milyon

dollar) İsrailə göndərdilər. Və çox fəxrlə onun qəbzini Muşediyandan aldılar. Amerikalı .yəhudilər İsrailə gündə bir milyon dollar kömək edirlər

Biz müsəlmanlar bu sahədə neyləmişik? İslam və Peyğəmbərə verməyə cavabımız ?varmı

Mən yəhudiləri yox, özümüzü məzəmmət edirəm. Necə də utanmır və özümüzü .müsəlman və Əli (ə)-ın şiəsi adlandırırıq

:Bir gün Əli (ə) düşmənin islami ölkələrin birisinə həmlə etdiyini eşidərkən buyurdu

Mən eşitmişəm ki, onlar islam dövləti pənahında yaşayan arvad-uşağa da rəhm ...etməmişlər və

Allaha and olsun eşitmişəm ki, düşmən belə bir hörmətsizlik edib, kişiləri öldürüb və ya ...əsir edib, qadınlara təcavüz edərək sırğalarını qulaqlarından çıxarıb və

.Əgər bir müsəlman bu xəbəri eşidib, ürəyi partlasa onu qınamamalıyıq

Görəsən biz də müsəlmanıqmı? Onlara maddi yardım göstərmək bizim borcumuz deyilmi? Fələstində ölənlər müsəlman deyillərmi? əzizlərini itirmirlərmi? öz şəri ?hüquqları üçün qiyam etməmişlərmi

Kim iddia edə bilər ki, ev-eşiklərindən didərgin düşmüş fələstinlilər öz doğma vətənlərinə

qayıtmağa haqlı deyillər? Allaha and olsun, adam bunları eşidib görəndə od tutub .yanır. Mən həcc səfərində olarkən bir çox fələstinli gəncləri görüb onlarla danışdım

.Onlar deyirdilər ki, bizim ümidimiz ancaq şəhidlər qanınadır

.Onların geymək üçün paltarı yoxdur, amma bununla belə yenə də vuruşurlar

Mən bir zaman hesabladım ki, əgər dünyanın ٧٠٠ milyon müsəlmanı, hərəsi İran pulu ilə gündə bir riyal kömək etsələr köməklərinin cəmi ildə ٢٥٠ milyard tümən olar və əgər ٩٨ faizi müsəlman olan İran xalqı hərəsi gündə bir riyal onlara kömək etsələr, bu ...pulların cəmi ildə bir milyon tümən hüdudunda olar

### Əmr be məruf və nəhy əz münkərin növləri–٥

:Quran buyurur

Allah-təala öz mal və canları ilə cihad edənlərə bu işi tərk edənlərdən mühüm“ ”.üstünlüklər vermişdir

Allaha iman gətirənlərin, Allah yolunda hicrət edənlərin və Onun yolunda öz mal və“ canları ilə cihad edənlərin məqamı çox yüksəkdir. Onlar qələbə çalanlar və nicat ”.tapanlardır

Maddi yardım göstərməyə imkanı olanlara bu iş namaz kimi vacibdir. ölümdən sonra verilən ilk sual

?budur ki, islami bağlılıqla əlaqədar nə kimi işlər görmüsən

:Peyğəmbər (s) buyurmuşdur

Yardım istəyən müsəlmanın fəryadını eşidib, onun harayına getməyən şəxs“ ”.müsəlman deyildir, mən onu müsəlman hesab etmirəm

Onların adına bankda bir hesab açıb, gəlirimizin az bir miqdarını onlara həsr etməyimizin nə eybi var? Nə üçün bütün dünya yəhudiləri İsrailə yardım göstərirlər və bütün dünya ictimaiyyətləri də onların bu işini bəyənib özlərini də ayıq-sayıq bir millət ?kimi qiymətləndirdilər? Nə üçün biz müsəlman fələstinlilərə yardım göstərməməliyik

Həqiqəti başa düşüb öz işini vaxtlı-vaxtında görən şəxslər agahdırlar. Mən bu məsələ ilə əlaqədar olan öz vəzifəmi layiqincə yerinə yetirirəm. Bu mövzunun üzərində .dayanıb, söz açmaq mən və bütün vaizlərin borcudur

Ayətullah Həkim kimi böyük və görkəmli müctəhid Fələstində ölənlərin şəhid .sayıldıqlarına fitva vermişdir

İndi ki, vəziyyət belədir, onda gəlin dünya ictimaiyyətləri arasında özümüzü, fikirlərimizi və işlərimizi dəyərləndirək. Dünyanın böyük dövlətləri müsəlmanları qeyrətsiz hesab etdikləri üçün bizim

taleyimiz haqda fikirləşmirlər. Amerikanı arxayınlığa çıxardan ilk məsələ budur ki, .onlar müsəlmanları qeyrətsiz və laqeyid hesab edirlər

Pul yolunda canını qoyan və həyatları pula bağlı olan yəhudilər İsrailə gündə bir milyard dollar kömək göndərirlər. Amma bir milyard müsəlman öz din qardaşlarına .azacıq da olsun belə kömək etmirlər. Aşura günü Hüseyn ibni Əli (ə)-ın merac günüdür

Biz belə bir gündə Hüseyn (ə)-ın qeyrət, müqavimət, şücaət, fədakarlıq, uzaqgörənlik .və öngörənliyindən dərs almalıyıq

Məşhur bir yazıçı olan "Əbbas Məhmud İqad" imam Hüseyn (ə)-ın barəsində belə :yazmışdır

Aşura günü sanki imam Hüseyn (ə)-ın əxlaqi səciyyələri bir-biri ilə yarışmaq istəyirdi. Məsələn, O həzrətin səbri başqa xüsusiyyətlərini qabaqlamaq istəyirdi. Allahın rizası olan Hüseyn (ə)-ın rizası onun səbrini qabaqlamaq istəyirdi, şücaət və fədakarlıq isə başqa xüsusiyyətləri qabaqlamaq istəyirdi. Mən Hüseyn (ə)-ın ixlası barədə danışmağa layiq deyiləm, amma bu qədər deyə bilərəm ki, Aşura günü İmam (ə)-ın yəqinlik və müqaviməti diqqəti daha artıq cəlb edirdi. Bu söz

:mənim yox, yaxından o macəranın müşahidəçisi olan bir ravinin sözüdür. O, belə deyir

Allaha and olsun, indiyədək qəlbisınıq, gözləri önündə oğlu şəhid edilmiş, Əhli-beyt və səhabəsinin başı bədənindən ayrılmış və hər bir əzab-əziyyətə qatlaşan şəxsin bu .qədər güclü olduğunu görməmişdim

Bu macəra çox qəribədir! Zarafat deyil, daha maraqlısı budur ki: "Aşara günü İmam (ə) ".öz hərəkatının işıqlı gələcəyini bilirmiş kimi çox təmkinlə qədəm götürürdü

Görünür, İmam Hüseyn (ə) şəhadət dərəcəsinə yüksəlməklə qələbə çaldı. Onun qiyamı, qaranlığa qərq olmuş dünyanı işıqlığa çıxartdı. Çünki imam Hüseyn (ə) şəhid olan zaman Bəni-Üməyyə hökumətinin əleyhinə hərəkatlar, qiyamlar, həmrəyliklər və .yekdilliklər başlandı

İlk dəfə etiraz edən şəxs kafir bir qadın idi. O, düşmənin Hüseyn ibni Əli (ə)-ın xeymələrinə axışdığını görən kimi, bir ağac götürüb xeymənin qabağında dayandı. Bəsr ibni Vail qəbiləsindən olan bu qadın fəryad edib dedi: Ey Bəsr ibni Vail övladları! Ey mənim qəbiləm! Hardasınız? İş o yerə gəlib çatıb ki, Peyğəmbərin balalarını .soyundurmaq istəyirlər

Hüseyn (ə) səhabələr şəhid olduqdan sonra, ikinci dəfə yenidən öz Əhli-beytilə vidalaşmaq üçün xeymələrə tərəf gəldi. İmamın ikinci dəfə qayıtmasının səbəbi, :tarixdə belə bəyan olunmuşdur

Hüseyn (ə) həmlə edib, düşməni geri oturtdu, "Fərat" çayına daxil olduqda bir nəfər :fəryad edərək dedi

.Düşmən sənin xeymələrinə tökülüşüb, sən isə su içmək istəyirsən

İmam bu sözü eşidən kimi oradan uzaqlaşıb xeymələrə qayıtdı. Mən bu macəranın doğru olub-olmadığını bilmirəm. Hüseyn (ə) düşməni xeymələrə yaxınlaşmağa ...qoymadı. O, bir daha öz Əhli-beytini öz başına yığdı

:Burada imam Hüseyn (ə)-ın ruh yüksəkliyini başa düşürük. İmam buyurdu

Mənim ey mənim Əhli-beytim! özünüzü hər bir çətinliyə qatlaşmağa hazırlayın. Bilin ki, Allah sizi qoruyub cəddinizin hərəminə qaytaracaqdır. Bu saatdan etibarən düşmənin bədbəxtliyi başlanacaqdır. Yəqin bilin ki, Allah sizin düşmənlərinizi bu dünyada müxtəlif .əzablara düçar edəcəkdir

Sanki imam Hüseyn (ə) vəziyyəti əvvəlcədən müəyyənləşdirmişdi, elə buna görə də bir nöqtəni mərkəz təyin edib orada dayanmışdı. Düşmən ordusundan bir dəstə İmamı .dövrəyə almaq isətyirdilər, amma qorxub geri çəkildilər

:Bu vəziyyəti görən Ömər Səd fəryad edərək dedi

.Nə edirsiniz, kim ilə vuruşursunuz? Bu, ərəb pəhləvanlarını öldürən şəxsin oğludur

Ömər Səd bu sözlə onların ərəblik qeyrət və təəssübünə toxunmaq istədi. O, əlavə :dedi

Əgər tək-tək yaxına getsəniz, o, hamınızı öldürəcəkdir. Yalnız hər tərəfdən həmlə .etməklə onu öldürmək olar

İmam (ə) hər tərəfdən hücum edib gələn düşməni yaxına buraxmırdı. İmamın qeyrəti onu xeymələrdən uzaqlaşmağa qoymurdu. Hüseyn ibni Əli (ə) Əhli-beytinə xeymələrdən bayıra çıxmamalarını dönə-dönə tapşırmışdı... Əhli-beyt atın kişnəmək səsəni eşitdikdə elə xəyal etdilər ki, İmam üçüncü dəfə yenidən vidalaşmaq üçün qayıtmışdır. Lakin bayıra çıxdıqda onların ürəyində parlayan son ümid çırağı da sönməyə başladı. İmamın tərbiyə olunmuş atı, onun yıxıldığını gördükdə İmam yanaşıb öz yalını onun qanına boyayıb, xeymələrə doğru qayıtdı. Atı dövrəyə

almış Əhli-beyt, nalə etməyə başladı. İmam Hüseyn (ə)-ın səsi eşidilirdi. O, fəryad :edərək buyururdu

İlahi! Hüseynin bütün ruhi və cismi gücü səndədir. İmamın səsini eşidən Əhli-beyt .onun hələ diri olduğunu bilib sevindilər

...İmam bir az dincəlib yenə də həmlə edirdi

Bir daha xatırladıram ki, Aşura günü İmam (ə) müharibənin səhabələr tərəfindən başlanmasına dair izn vermədi. Çünki o, atası Əli (ə)-ın adət-ənənəsinə əməl etmək :istəyirdi. İmam Hüseyn (ə) buyurdu

Mən heç vaxt müharibəni başlamaram, onlar başladıqda biz də cavab verməyə“ ”.məcburuq

:Ömər Səd Ubeydulla ibni Ziyadın razılığını əldə etsin deyə müharibəni belə başladı

Oxu yaya qoyub xeymələrə tərəf atarkən fəryad edib dedi: əmrin hüzuranda şəhadət .verin ki, Hüseynin xeymələrinə tərəf ilk ox atan şəxs mən idim

Ömər Səd imam Hüseyn (ə)-ın sinəsini nişan aldığı başqa bir oxla da müharibəyə son qoydu. Həmin o ox, İmam (ə)-ın sinəsinin dərinliyinə qədər nüfuz etmişdi. Elə buna görə də İmam (ə) oxu sinə

səh:۱۲۳

...tərəfindən yox, arxadan çəkib çıxartdı. İmam taqətsiz bir halda atdan yerə düşdü

Mötəbər məqtəllərdə yazmışlar ki, imam Həsən (ə)-ın oğlanları, əmiləri ilə bərabər Kərbəlaya gəlmişdilər. Onların biri əmisinin evində böyümüş on yaşlı Abdullah idi. İmam (ə) ona çox məhəbbət göstərərdi. Abdullah da imamı çox sevərdi. İmam (ə), qardaşı uşaqlarını bacısı Zeynəbə tapşırmışdı. Zeynəb on yaşlı Abdullahın meydana doğru yüyürdüyünü gördükdə, arxasınca qaçıb onu tutub saxlamaq istədi. Uşaq :fəryad edərək dedi

”.Bibican, Allaha and olsun, mən əmimdən ayrılmaram“

Uşaq özünü əmisinə çatdırdı, Zeynəb də qaçıb oraya yetişdi. İmam buyurdu: Sən qayıt, !bu uşaq mənim yanımda qalsın

Abdullah əmisi imam Hüseynlə qucaqlaşıb qol-boyun oldu, bu dəmdə düşmən imamın başına bir zərbə endirmək istəyirdi. Abdullah fəryad qoparıb dedi: Ey haramzadə! Sən mənim əmimi öldürmək istəyirsənmi?! O məlun qılıncını Abdullahın qoluna endirərək onun qolunu üzüb yerə saldı. Qolu üzülmüş Abdullah dedi: “Əmican gördün ki, mənimlə ”.neylədilər

«.Əla lənətullahi ələl-qövmiz-zalimin»

«Əşhədu ənnəkə qəd əmərtə bil mərufi və nəhəytə ənil munkəri və cahədtə fillahi həqqə-cihadihi hətta ətakəl yəqin.»

«Vəla hovlə vəla qüvvətə illa billahil əliyyil əzim.»

səh:۱۲۵

## Mündəricat

ön söz ..... ۸

İmam Hüseyn (ə)–ın inqilabi hərəkatında mühüm amillər ..... ۹

Birinci amil beyət ..... ۱۱

İkinci amil dəvət ..... ۲۳

Üçüncü amil əmr be məruf ..... ۲۸

əmr be məruf və nəhy əz münkərin şərtləri ..... ۵۱

əmr be məruf və nəhy əz münkərin dərəcələri ..... ۶۲

səh:۱۲۶

## Haqqında mərkəzi

Allahın adı ilə

Rəhman və Rəhimli olan Allahın adı ilə.Və bütün həmdlər aləmlərin rəbbi olan Allaha .məxsusdur

.Varlıq aləminin Kövsəri olan Həzrəti Fatiməyi Zəhraya (a) təqdim olunur

(Bilən kimsələrlə (alimlər) bilməyənlər (cahillər) eynidirlərmi? (Zümər surəsi, ayə ٩

:Ön söz

İsfahan Qaimiyyə kompüter araşdırmalar müəssisəsi ٢٠٠۶-cı ildən Mərhum Ayətullah Seyyid Həsən Fəqih İmaminin nəzarəti altında,elmi mərkəzlərdə tanınan görkəmli tələbələrin vasitəsi ilə məzhəb,mədəniyyət və elmi sahələrdə öz fəaliyyətinə .başlamışdır

:Məramnamə

İsfahan Qaimiyyə kompüter araşdırmalar müəssisəsi təhqiqatçıların dini biliklərə rahət və tez bir zamanda yiyələnmələri üçün hər bir xidməti onların ixtiyarında qərar vermişdir.Və bu sahədə təəssübkeşlikdən,ictimai,siyasi,fərdi cəryanlardan uzaq duraraq yalnız və yalnız elmi sahədə ixlasla öz xidmətini həyata keçirməkdədir.Bu səbəbdən adı çəkilən müəssisə layihəsini həyata keçirmiş.Və tədqiqat üçün nəzərdə tutulmuş kitabları,məqalələri mütəxəssislər və müxtəlif təbəqələrdən olan insanlar üçün,bir neçə dillərdə və formalarda hazırlayaraq,heç bir məbləğ tələb etmədən sosial .medyada istifadəçilərin ixtiyarında qoymuşdur

:Hədəflər

Quran və Əhli beyt mədəniyyətini və maarifini yaymaq.١

İnsanları,xüsusən gəncləri tam dəqiq şəkildə dini məsələləri araşdırmağa.٢ sövqləndirmək

Telefon,tablet və kompüterlərdə olan faydasız,yararsız mövzuların yerini .٣ faydalı,mənəviyyatlı mövzularla doldurmaq

.Təhqiqatla məşğul olan tələbələrə xidmət etmək.۴

.Kitab və elmi əsərlər oxumaq mədəniyyətini yaymaq.۵

.Müəlliflərin öz elmi əsərlərini digital formada yaymaq üçün onlara şərait yaratmaq.۶

:İcraçılıq

.Qanunla icazəli olan lisenziyaya malik əsərlərin yayımı.١

.Bu mərkəz kimi xidmət göstərən oxşar mərkəzlərlə əlaqə.۲
.(Paralel xidmətlərdən çəkinmək (başqalarının etdiklərini təkrarlamamaq.۳
.Yalnız və yalnız elmi məsələləri yaymaq.۴
.Nəşriyyatın mənbələrini qeyd etmək.۵
.Qeyd:Kitabda olanlara görə məsüliyyət o kitabı yazan müəllifin öhdəsindədir
:Müəssisənin fəaliyyəti
.Kitabların çapı və nəşri.۱
.Kitab oxumaq müsabiqələrinin təşkili.۲
.Məcazi sərgilərin istehsalı.۳
.Kompüter oyunlarının istehsalı.۴
Qaimiyyə internet saytının yaradılması:www.ghaemiyeh.com.۵
.Sərgi məhsullarının və moizələrin istehsalı.۶
.Şər'i,əxlaqi və etiqadi suallara cavab.۷
.Mühasibat,mətbuat yaratmaq və sms... sistemlərinin layihəsi.۸
.Təlim kurslarının həyata keçirilməsi.۹
Tərbiyəçi şəxslər hazırlamaq üçün təlim kurslarının təşkili.۱۰
Kompüterdə,tabletdə və telefonlarda icrası mümkün olan minlərlə proqramların.۱۱
dünyada məşhur olan səkkiz formada istehsalı
JAVA.۱
ANDROID.۲
EPUB.۳
CHM.۴
PDF.۵
HTML.۶
CHM.۷
GHB.۸
.v.Qaimiyyə kitab bazarı adına dörd market
ANDROID.۱
IOS.۲
WINDOWS PHONE.۳
WINDOWS.۴
deyilənlər müəssisənin veb saytında Fars,Ərəb,İngilis və Azərbaycan dillərində pulsuz

.istifadəyə verilmişdir

:Sonunda

Mərcəi təqlid müctəhidlərin dəftərxanalarından (ofis),müəssisələrdən,nəşriyyatçılardan,müəlliflərdən və əməyi olan bütün şəxsiyyətlərdən bizlərə hədəfə çatmaqdan ötrü yardım etdikləri üçün səmimi qəlbdən .təşəkkür edirik


:Mərkəzin ünvanı

İsfahan-Əbdurrəzzaq küçəsi-Hacı Muhəmməd Cəfər adına bazar-Şəhid Muhəmməd Həsən Təvəkküli küçəsi-blok۱۲۹/۳۴-birinci mərtəbə

veb sayt:www.ghbook.ir

mail:Info@ghbook.ir

mərkəzin ofis telefonu: ۰۰۹۸۳۱۳۴۴۹۰۱۲۵

Tehran ofisi: ۰۰۹۸۲۱۸۸۳۱۸۷۲۲

Biznes və alqı satqı: ۰۰۹۸۹۱۳۲۰۰۰۱۰۹

Mərkəzdə çalışan insanlarla əlaqə yaratmaq üçün nəzərdə tutulan nömrə: ۰۰۹۸۹۱۳۲۰۰۰۱۰۹


İsfəhan Qaimiyyə kompüter
araşdırmalar mərkəzi
Qaimiyyə
www
Başqa kitabxanaya sahiblənmək üçün
gördüyünüz sayt mərkəzinə müraciət
etməniz lazımdı:
www.Ghaemiyeh.com
www.Ghaemiyeh.net
www.Ghaemiyeh.org
www.Ghaemiyeh.ir
Və sifariş üçün bizimlə əlaqə saxlayın:
(0098) 0913 2000 109